

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Azərbaycanın növbəti diplomatik uğuru



7

SƏS

№ 236 (7161)

21 dekabr 2024-cü il.
Qiymәti 60 qәpik

# COP29: Dünya 2024-cü ili "Bakı dönüşü" kimi xatırlayacaq




2

*Azərbaycan 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" kimi başa vurmaqdadır. Ətraf mühitin qorunmasına həssaslıqla yanaşan ölkələr sırasında olan nadir təbiətə məxsus Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir.*

# Ermənistanın "sülhməramlı" müharibəsi



5

## İcma: "Paşinyanın "Qərbi Azərbaycan" ifadəsinə irad tutması tamamilə əsassızdır"

QƏRBİ AZƏRBAYCAN İCMASI
WESTERN AZERBAIJAN COMMUNITY

7

## Yeni İl masamızı necə bəzəyək?



10

## Qış gəlir, həm də Çilləsi ilə...



12

## Avropanın media casuslarının ifşa edilməsindən Əli Kərimli niyə narahat olub?




14

## Qiyabi təhsil alan tələbələr təhsil krediti ala bilərmi?



16







# COP29: Dünya 2024-cü ili "Bakı dönüşü" kimi xatırlayacaq

***Azərbaycan 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" kimi başa vurmaqdadır. Ətraf mühitin qorunmasına həssaslıqla yanaşan ölkələr sırasında olan nadir təbiətə məxsus Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır. Təsadüfi deyil ki, Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürmüşdür.***

Bütün bunların nəticəsi olaraq Azərbaycan həm də COP29 kimi beynəlxalq tədbirə ev sahibliyi etdi. Və bu tədbirin təşkilatçılığı, keçirilən panel iclaslarda iştirakı, ideyaları və dünyadakı kiçik və ada dövlətlərinin yanında olması ilə bir daha sübut etdi ki, ölkəmiz iqlim dəyişikliyinə qarşı mübarizədə birincilər sırasındadır, bu məsələyə öz töhfəsini verməyə hər zaman hazırdır.

Belə böyük bir tədbirin Azərbaycanda keçirilməsi həm də ölkəmizə dünyanın böyük dövlətlərinin nüfuzunu, münasibətini də ortaya qoymuş oldu. Baxmayaraq ki, onların bir neçəsi paxıl mövqelərini göstərdilər, lakin elə bunun özü də onlardan dəfələrlə kiçik olan Azərbaycanı özləri ilə bir sırada gördüklərini təsdiqləyən amil idi.

2024-cü ilin ölkədə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2023-cü il tarixli Sərəncamında da deyildiyi kimi, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.

### Azərbaycan ev sahibliyini yüksək səviyyədə bacardı

Dünyanın hər yerindən nümayəndələr qlobal iqlim dəyişmələrinə qarşı mübarizə tədbirlərinin birgə müzakirəsi üçün Azərbaycana gəldi. Noyabrın 11-dən 22-dək Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) Azərbaycan yüksək səviyyədə ev sahibliyi etdi və yaradılan hər bir şərait onu göstərdi ki, ölkəmiz üçün bu kimi tədbirlərin keçirilməsində heç bir problem yoxdur. Və Rusiya Federasiyası Hökumətinin Sədri Mixail Mişustinin dediyi kimi, bu tədbir həm də Cənubi Qafqazda ilk olaraq Azərbaycanda keçirildi. Bu isə onu təsdiqlədi ki, Azərbaycan regionda, eləcə də dünyada böyük gücə və nüfuza malikdir.

COP-un keçirildiyi 28 ölkədən fərqli olaraq biz bu tədbirə qısa zaman ərzində hazırlaşmışdıq. Və belə qısa bir zaman kəsiyində bu qədər hərtərəfli hazırlığın həyata keçirilə bilməsi, sözün həqiqi mənasında, heç də qonaqların hamısının gözlədiyi hal deyildi. Və bu möhtəşəm hazırlığın özü dünya dövlətlərindən bir neçəsinin qıcıqlanmasına da şərait yaradan amil oldu.

Dövlətimizin başçısı İlham Əliyevin dekabrın 17-də Ümumrusiya Dövlət Televiziya və Radio Yayımı Şirkəti və Rusiyanın "RİA Novosti" Agentliyi üçün "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru, "Rossiya-1" televiziya kanalında "Vesti nedeli" proqramının müəllifi və aparıcısı Dmitri Kiselyovaya verdiyi müsahibədə onun "Bu yaxınlarda Azərbaycan nəhəng iqlim sammitinə ev sahibliyi etdi. Hansı çətinliklərlə üzləşməli oldunuz və bu sammitin əsas nəticələri nədən ibarətdir?" sualını cavablandırarkən də tədbirə qısa zamanda hazırlıqla bağlı maraqlı faktları dinlədik: Başlıca çətinlik ondan ibarət idi ki, bizim vaxtımız az idi. Bir qayda olaraq, ölkələrə hazırlıq üçün 2 il vaxt verilir. Bizim isə 11 ayımız var idi. Bunun səbəbi o idi ki, ötən ilin dekabrında qərar qəbul edilməsinə iki-üç gün qalmış Ermənistan hələ də Azərbaycanın namizədliyini bloklayırdı. COP29-un Bakıda keçiriləcəyi ilə bağlı konsensus olmadığına görə məsələ son günlərdə həll edildi. Ona görə də hazırlaşmaq üçün bizim cəmi 11 ayımız var idi və bu, ən böyük çətinlik idi. Çünki biz 70 mindən çox insanı qəbul etmək üçün şərait yaratmalı idik. Qeydiyyatdan 76 min iştirakçı keçmişdi. Onları yerləşdirmək, mehmanxana fondunun sertifikatlaşdırılmasını yenidən aparmaq, - belə ki, bizim mehmanxana fondunda bu qədər yer yoxdur, - qonaqların yerləşdirilməsi məkanlarını müəyyən etmək lazım idi. Bunun üçün müxtəlif istirahət zonaları müəyyənləşdirildi, həmçinin tikilmiş, amma hələ istifadəyə verilməmiş mənzil fondu obyektləri mehmanxana normalarına uyğun vəziyyətə gətirilməli idi. Bu, çox böyük təşkilati iş idi və biz onun öhdəsindən şərəflə gəldik. Yəni, bildiyimə görə, bu konfransın keçirildiyi bütün vaxt ərzində təşkilatçılıqla bağlı on şikayət olub, amma onlar operativ şəkildə nizamlanıb və belə demək mümkündürsə, bütün qonaqlar razı qalıb.

### "Petrostate" adlandırılmağımız paxıllıqdan başqa bir şey deyil

COP29-un Azərbaycanda keçiriləcəyi məlum olandan sonra bunu gözügötürməyən qüvvələr Azərbaycanı qazı və nefti ilə suçlayır, neft ölkəsinə belə bir tədbirin keçirilməsini yaraşdırmırdılar. Onların hər birinə dövlətimizin başçısının COP29 Liderlər Sammitinin açılış mərasimindəki nitqində səsləndirdiyi fikirlər gözəl cavab oldu: Yaxşı olardı ki, ən azı onlar özlərinə və Azərbaycandan 10 dəfə artıq neft hasil edən özlərinin qonşuluğundakı ölkəyə baxsınlar. Azərbaycanın qlobal qaz atılmalarındakı payı cəmi 0,1 faizdir. Mən bu rəqəmləri auditoriyamızın diqqətinə çatdırmalıyam, çünki Azərbaycan COP29-a ev sahibi seçildikdən dərhal sonra biz əlaqələndirilmiş və yaxşıca təşkil olunmuş qarayaxma və böhtan kampaniyasının hədəfinə çevrildik.

Qərbin yalan xəbər mediası, dırnaqarası müstəqil QHT-ləri və bəzi siyasətçiləri sanki ölkəmiz haqqında dezinformasiya və səhv məlumatın yayılmasında yarışa çıxıblar. Neftimizin olmasında bizi ittiham etmək bir növ Bakıda il ərzində 250-dən artıq günəşli günün olmasında bizi suçlamağa bənzəyir.

Həqiqətən də, biz günahkar deyilik ki, bu torpaqlarda doğulmuşuq. Neft, qaz ölkəsi olmaqla yanaşı, eyni zamanda dünyanın iqlim dəyişmələrinə narahat olmayan nəhəng ölkələrlə müqayisədə daha çox narahatıq. Deməli, biz neftimizi də, qazımızı da dünyaya zərər verəcək dərəcədə istifadə etmirik. Əgər etsəydik, bu, qlobal səviyyədə bilinər və COP29-un ölkəmizdə keçirilməsinə qarşı hər kəs etiraz edərdi.

Müsahibədə dövlətimizn başçısı bu məsələ barədə də ətraflı danışdı: İkinci çətinlik, əgər onu çətinlik adlandırmaq mümkündürsə, deyərdim ki, müəyyən rahatsızlıqla bağlı olan məsələ tamamilə əsassız aqressiya hissi, bir növ Azərbaycana qarşı paxıllıqla müşayiət olunan qərəz idi. Yəni belə bir ölkə var və birdən-birə bu cür konfransa ev sahibliyi etmək hüququ qazanıb. Müxtəlif Qərb media orqanları bizi "petrostate" adlandırmağa başladı. Halbuki prinsipcə burada pis bir şey yoxdur. Mən açılışda çıxış edərək dedim ki, əgər bizi XIX əsrdə "petrostate" adlandırsaydılar, - o dövrdə biz dünya neftinin 50 faizini tədarük edirdik, - onda bu, normal olardı. Amma indi təqribən bizim 30-a qarşı milyard ton neft hasil edən ölkənin, - mən ABŞ-ı nəzərdə tuturam, - bugünkü feyk xəbərlərində bizi "petrostate" adlandırırlar.

### Qlobal qaz emissiyasında Azərbaycanın payı 0,1, ABŞ-da 12 faiz, Avropa İttifaqında daha çoxdur...

Azərbaycan 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürmüşdür.

Hazırda isə ölkəmizdə hasilata görə biz iqlimə təbii ki, ABŞ-nin tanıdığı və qonşuluğunda yerləşən dövlətlərdən az zərər veririk. Lakin onları göz qarşısında görə-görə məhz bizim adımızın hallandırılması və dünyanın bir neçə media subyektinin üzərimizə qaldırılması yenə də yalnız ədalətsizliyin göstəricisi idi. O ədalətsizlik ki, Azərbaycan bunu 30 il torpaqları işğal altında olarkən də görmüşdü. Dəfələrlə dünyanın nəhəng ölkələrini Ermənistanla Azərbaycan arasında sülhün bərqərar olamasında yardıma çağırsa da, heç bir mənası olmamışdı. Görünür, bütün bunların fonunda deməyə əsas verən bir amil var ki, nədənsə nəhənglər kiçik dövlətlərin inkişafını, tərəqqisini heç də birmənalı qarşılamır.

Dövlətimizin başçısı da müsahibədə bu məsələyə dəyərli fikirləri ilə öz münasibətini bildirdi: Bizdə neft hasilatı cəmi 30 milyon civarındadır. Bu ölkənin qonşusu, - mən Kanadanı nəzərdə tuturdum, - bizdəkindən 10 dəfə artıq neft hasil edirsə və bizi "petrostate" adlandırırsa, bu ədalətsizlikdir. Amma bu feyk xəbərlər qrupu, - yeri gəlmişkən, bu, mənim ifadəm deyil, sadəcə, Prezident Trampdan əxz etmişəm və bu, mənim çox xoşuma gəlir, - zənnimcə, çox hərtərəfli və olduqca ünvanlıdır. Onları adlandırdığımız kimi, "yalançı dördlük" – "Washington Post", "New York Times", "Figaro" və "Le Monde". Bax, bu dördlük Dövlət Departamentinin himayəsindəki müxtəlif qeyri-hökumət təşkilatları ilə birlikdə qərəzli kampaniyaya başladılar, hər gün hücum edirdilər.

Ardı Səh. 3




# COP29: Dünya 2024-cü ili "Bakı dönüşü" kimi xatırlayacaq

Əvvəli-Səh-2

Hər gün məqalələrin sayı yəqin ki, minimum 20-dən çox olurdu. Bu, çətinlik yaratmadı, amma, sadəcə, ikrah hissi doğurdu. Əlbəttə ki, nəticə əldə etmək çətin idi, çünki biz bu sahədə qlobal aktor deyilik. Qlobal qaz emissiyasında Azərbaycanın payı 0,1 faizdir. Halbuki ABŞ-da bu, 12, Avropa İttifaqında daha çoxdur... Azaldırlar. Onu dəfələrlə azaldırlar. Bu, ayrıca mövzudur.

Bəli, kimin iqlimə hansı zərəri vurduğu göz qarşısındadır. Lakin bunu müəyyən niyyətlər altında gizlətmək, dünya iqliminin dəyişməməsinə töhfəsini vermək istəyən bir dövlətin nüfuzuna xələl gətirməyi görəsən belə nəhəng dövlətlər özlərinə necə sığışdırır? Yox, görünür, mənim səhvim var. Onların ta qədimdən siyasətləri məgər məkr üzərində qurulmayıb?..

### İqlim xərci 100 idi, 300 milyard oldu

COP29 bir çox məqamları ilə tarixin səhifələrinə yazıldı. Onlardan biri də iqlim məsələlərinə ayrılan xərclə bağlı oldu. Məhz Bakıda bu rəqəm 100 milyarddan 300 milyarda qaldırıla bildi. Bunun özü böyük uğur deyilmi?

Dövlətimizin başçısı verdiyi müsahibədə bu məsələni hərtərəfli təhlil etmişdir: Bəzilərinin uğursuz adlandırdıqları ikinci bənd üzrə, - amma mən hesab edirəm ki, bu, uğurdur, - biz iqlim mövzularına illik xərclərin məbləğini razılaşdıra bildik. Bu məbləğ 300 milyard dollardır. Məqsəd trilyon idi. Amma aydın idi ki, trilyonu verməyə hazır deyillər. Lakin onu nəzərə alsaq ki, bundan əvvəlki razılaşdırılmış rəqəm 100 milyard idi, burada isə 300 oldu, bunu uğursuzluq adlandırmağa dilim gəlmir. Başqa məsələlər də var idi. Orada Azərbaycan tərəfindən 14 təşəbbüs irəli sürüldü. Ölkələrin mütləq əksəriyyəti bu təşəbbüslərə qoşuldu, Fransa və Lüksemburq kimi dövlətlər istisna olmaqla. Fransa ilə bağlı məsələ aydındır. Lüksemburqun Fransanın ardınca getməsi yəqin ki, məlumdur. Bax, bu konfransı mən təxminən belə xarakterizə edərdim. Əlbəttə ki, 197 ölkə, 80 dövlət və hökumət başçısı, qeydiyyatdan keçmiş 76 min iştirakçı. Həm də bu, boykot cəhdlərinin fonunda oldu. Bu, bir növ ölkənin təqdimatı idi.

### "Bakı dönüşü" bəyanatı dünyaya təqdimatımız oldu

Noyabrın 28-də COP29 QHT Koalisiyası "Baku dönüşü" ilə əlaqədar bəyanat yaydı: "100-dən çox ölkədən 500-ə yaxın vətəndaş cəmiyyəti təsisatını özündə birləşdirən COP29 QHT Koalisiyası COP29-un yüksək səviyyəli təşkilinə görə Azərbaycan dövlətini təbrik edir, Azərbaycanın COP29 Sədrliyi altında yeni iqlim maliyyəsinin müəyyən olunması, Paris Sazişinin 6-cı maddəsinin işə salınması, İtki və Zərər fondunun işə başlaması kimi vacib əhəmiyyət kəsb edən qərarların qəbul edilməsini mühüm irəliləyiş hesab edir.

COP29 QHT Koalisiyası üzvlərinin 84%-i ən az inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin vətəndaş cəmiyyətini təmsil edir. Təbii ki, yeni iqlim maliyyəsi ilə bağlı sənəddə əksini tapmış məbləğin daha yüksək olmasını istəyərdik. Lakin biz, müxtəlif rəyləri olan 198 tərəfin iştirakı ilə verilən bu ümumi qərarın hansı çətinliklər və gərgin müzakirələr hesabına ərsəyə gəldiyini dərk edirik. Hesab edirik ki, bu razılığın əldə olunması kollektiv səylərin nəticəsidir və Bakı üçün tarixi bir andır. Əminik ki, sənəddə maliyyə artımı ilə bağlı yer alan çağırış COP prosesində gələcək danışıqların mühüm istinad nöqtəsi olacaq.

Biz post-COP29 dövründə də iqlim fəaliyyətinin gücləndirilməsi istiqamətində fəal iş aparacaq, COP29 mirasından bəhrələnəcək, bu istiqamətdə strateji xətti davam etdirmək üçün səylərimizi əsirgəməyəcəyik".

Dövlətimizin başçısı müsahibəsindəki dəyərli fikirləri ilə COP29-la bağlı bu məsələyə də münasibətini bildirdi: Biz bütün diplomatik təcrübəmizi işə saldıq, ilk növbədə, Qoşulmama Hərəkatında sədrlik təcrübəmizi. Hər halda orada 120 ölkə var. İslam Əməkdaşlıq Təşkilatında fəal üzvlük də körpülər qurmağa və nəticə əldə etməyə kömək edir. Bu, asan olmadı. Amma hər halda biz bu konfransı təsadüfən "Bakı dönüşü" adlandırmırıq, çünki Paris Sazişinin 6-cı maddəsini razılaşdırmaq mümkün oldu. O, 2015-ci ildən müzakirə olunurdu. Yəni, təxminən 10 il karbon bazarları məsələsi razılaşdırılmamışdı. Biz burada - Bakıda buna nail olduq və o, artıq fəaliyyət göstərəcək. Bu, ölkələrə kvotaları satmağa və bununla da qlobal emissiyanı arzuolunan həddə saxlamağa cəhd göstərməyə imkan verəcək.

### Məhv etməsələr, bütün dünya cənnətdir

Noyabrın 13-də Bakıda COP29 çərçivəsində keçirilən inkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) sammitində beynəlxalq gündəlikdə mühüm məsələlərdən olan neokolonializm və iqlim dəyişmələrinə münasibət bildirən dövlətimizin başçısı kiçik ada dövlətlərindən olan nümayəndələr qarşısında faktlarla çıxış etmiş, vəziyyətin təhlilini vermişdir: Fransa və Niderlandın xüsusən də Karib dənizi və Sakit Okean regionundakı dırnaqarası dəniz əraziləri iqlim dəyişmələrinin ən ciddi təsirinə məruz qalanlar sırasındadır. Artan dəniz səviyyəsi, kəskin hava şəraiti və biomüxtəlifliyin pozulması həmin regionlara ciddi təhlükə yaradır. Həmin icmaların səsi bir çox hallarda onların metropoliyalarındakı rejimləri tərəfindən susdurulur.

Yeni Kaledoniya, Fransa Polineziyası, Mayot, Vallis və Futuna, Korsika, Reunion, Qvadelupa, Martinika, Fransa Qvianası, Sen-Pyer və Mikelon, Sent-Mert və Sent Varfolomey kimi Fransa müstəmləkələrinin xalqları, eləcə də Niderlandın Aruba, Kurasao, Sənt-Maarten, Boneyr, Sent Yefstaxiy və Saba kimi müstəmləkələrinin xalqları, – gəlin, həmin ərazidəki xalqları alqışlayaq, – bu gün XXI əsrdə də müstəmləkə hakimiyyətindən əziyyət çəkirlər. Hazırda Fransa Polineziyası və Yeni Kaledoniya 1946-1947-ci illərdə BMT tərəfindən qeyri-özünü idarə edən ərazilər kimi tanınır. Bununla belə, onların dekolonizasiya prosesi hələ də yubanır.

1966-1996-cı illər ərzində Fransa Polineziyası Fransanın apardığı 193 nüvə sınağı səbəbindən ətraf mühitin ciddi pozulması ilə üzləşib. Fransa orada torpaq və suyun kəskin dərəcədə zəhərlənməsi və radiasiyasına görə məsuliyyət daşıyır. Radiasiya səviyyəsi 4900 faizi keçib. Əgər buna Fransanın Əlcəzairdə illər boyu işğalı zamanı həyata keçirdiyi 17 nüvə sınağını əlavə etsək, biz həmin ölkə tərəfindən planetin ekosisteminə hansı zərərin vurulduğunu görərik. Fransanın dırnaqarası dəniz ərazilərində törətdiyi cinayətlər siyahısı rejimin bu yaxınlarda insan hüquqları pozulmalarını qeyd etməsək, tam olmazdı. Prezident Makronun rejimi Yeni Kaledoniyada kanakların builki legitim etiraz aksiyasında 13 nəfərin həyatına son qoymuş, 169 nəfəri yaralamışdır. 1700 insan həbs edilmişdir. Həmçinin bu il Martinika və Qvadelupada etirazlar zamanı 38 nəfər həbs olunub. Bütün bunlarla yanaşı, Fransa nə Avropa Komissiyası, nə Avropa Parlamenti, nə də ki, Avropa Şurasının Parlament Assambleyası tərəfindən pislənildi.

Dövlətimizin başçısı bütün bunları siyasi riyakarlıq adlandırmışdı, siyasi korrupsiya rəmzinə çevrilmiş iki təsisat – Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyasının günahsız insanların qətlinə görə Prezident Makronun hökuməti ilə məsuliyyəti bölüşdüyünü qeyd etmiş və Fransadakı bütün siyası məhbusların dərhal azad olunmasını bildirmişdi.

Samitdə dövlət başçısının çıxışının yaddaqalan və insan hüquqlarına yönəlmiş əsas məqamlarından biri isə bu olmuşdu: Əgər Avropanın əsas diplomatı Cozep Borrell Avropanı bağ, dünyanın qalan hissəsini isə cəngəllik adlandırırsa, onda Avropa Parlamenti ilə Avropa Şurası Parlament Assambleyasından daha nə gözləmək olar?! Əgər biz cəngəllikiksə, onda bizdən kənar durun və işlərimizə qarışmayın. Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi kiçik ada dövlətlərinə dəstək verib, COP29-un sədri kimi onları dəstəkləyəcək və gələcəkdə dostlarımızı dəstəkləməkdə davam edəcək.

Bəli, nəhəng dövlətlər anlamalıdır ki, tək Avropa deyil, bütün dünya cənnətdir, bağdır, gülüstandır. Hər kəsə öz Vətəni cənnətdir. Lakin Avropa Parlamenti ilə Avropa Şurası Parlament Assambleyası görünür, ya dünyanın gözəlliklərini görə bilmir, ya da bunu görən gözləri yoxdur. Lakin insanlara sayğı ilə yanaşmağın nə qədər insani bir hiss olduğunu unutmamaq gərəkdir. Elə bunun başlıca göstəricisi də dünyanın iqlim dəyişmələrinə qarşı mübarizəyə verdiyi töhfə ola bilər. Lakin çəkişmək-didişməklə bunu həyata keçirmək olmaz.

Kiçik bir dövlət-Azərbaycan onların hər birinə nümunə gücündədir. Baxsınlar, insanlara və insanın ayrılmaz hissəsi olan iqlimə münasibətin necə olduğunu bizdən öyrənsinlər. İqlim ona qayğı göstərilmədiyi təqdirdə hər kəs üçün eyni "hədiyyəni" təqdim edəcək. 2024-cü il "Bakı dönüşü" ilə dünya iqliminə öz töhfəsini verdi. Hər bir dövlət iqlimə bizim verdiyimiz qədər töhfə verə bilərsə, nə iqlim dəyişər, nə də kimsə onunla mübarizə aparmalı olar.

Biz, Azəbaycan olaraq ötən 28 ildəkindən fərqli bir missiyanı yerinə yetirdik. Və tarixin səhifələrinə də olduğumuz kimi yazıldıq. Gələcəkdə isə bunun davamının gəlməsini arzulayırıq. Çünki bütün dünyanın bir araya gəlməsi elə bir məsələ üçün gərəkdir ki, bu, bütün bəşəriyyətin nəfəsidir. Nəfəq varsa, insan var, həyat var.

**Mətanət Məmmədova**

# Prezident İlham Əliyevin Dmitri Kiselyova müsahibəsində səsləndirdiyi fikirlər dünya mediasının gündəmindədir







***Dünya mətbuatı Azərbaycan Prezidenti İlham Əliyevin “Rossiya Seqodnya” Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru, “Rossiya-1” televiziya kanalında “Vesti nedeli” proqramının müəllifi və aparıcısı Dmitri Kiselyova verdiyi müsahibədə səsləndirdiyi fikirləri yaymaqda davam edir.***

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin dünya gündəmini dərindən maraqlandıran, eləcə regionda böyük maraq doğuran məsələlərlə bağlı hərtərəfli təhlil və şərhləri ərəbdilli media qurumları tərəfindən də geniş işıqlandırılıb.

Birləşmiş Ərəb Əmirliklərinin “Nabd” portalında dərc olunan yazıda dövlətimizin başçısının Azərbaycan-Ermənistan münasibətləri haqqında fikirlərinə diqqət çəkilib. Bildirilib ki, Prezident İlham Əliyev Ermənistanla sülh sazişi ilə bağlı 15 bənd üzrə razılığa gəlindiyini, 2 bəndin isə razılaşdırılmadığını qeyd edib. Bildirib ki, sülh sazişinin imzalanması üçün sərhəddə başqa dövlətin nümayəndələri və ölkələrin bir-birinə qarşı ərazi iddiaları olmamalıdır.

Tunisin “News” nəşri qeyd edir ki, Azərbaycan Prezidenti Gürcüstanda baş verən hadisələrdə Makronun da əlinin olduğunu bildirib. Vurğulayıb ki, Makron öz ölkəsində rahat durmur və Gürcüstana da əl atır.

Ərəbdilli “Addiyar” portalı isə dövlətimizin başçısının Rusiya-NATO əlaqələrinə dair münasibətinə diqqət çəkib. Portalda Azərbaycan Prezidentinin NATO-Rusiya qarşıdurmasının dünya üçün çox fəlakətli nəticələrə səbəb olacağı barədə fikrini xüsusi vurğulayıb: “Aydındır ki, bu müharibədə qalib olmayacaq. Heç bir ölkə, hətta deyək ki, NATO regionundan və ya Rusiya ərazilərindən uzaqda yerləşən ölkə olsa belə, özünü təhlükəsizlikdə hiss etməyəcək”.

Əlcəzairin “Al Cazair Al Youm” qəzetində dərc olunan məqalədə Prezident İlham Əliyevin Fransa Prezidenti Emmanuel Makronun uğursuz siyasəti barədə tənqidi fikirlərinə xüsusi yer ayırıb. Dövlətimizin başçısının “...Fransa ola bilər ki, nə vaxtsa böyük ölkə, dahi mütəfəkkirlər, böyük alimlər, yazıçılar ölkəsi olub. Amma indi belə deyil. Hazırda Makron rejimi mahiyyət etibarilə Fransanı uğursuz dövlətə çevirir” fikrinin sitat gətirildiyi məqalədə Prezident İlham Əliyevin diktatura adlandırdığı Makron rejiminin daxili siyasəti, eləcə də Mayotda və Yeni Kaledoniyada neomüstəmləkəçi addımlarını sərt tənqid etdiyi, Parisin böyük diplomatik uğursuzluqlar yaşadığını qeyd etməsi vurğulanıb. Türkiyənin Anadolu Agentliyində, “Yeni Şafak”, “Daily Sabah” qəzetlərində, “Turkish Minute” nəşrində İndoneziyanın “Islam Times”, “Islam Today” portallarında, Krım Xəbər Agentliyində, İranın Mehr Agentliyində, eləcə də Stratfor Fondunun saytında, həmçinin “usmuslims.com”, “eadaily.com portallarında yer alan məqalələrdə Prezident İlham Əliyevin Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı barədə diqqət mərkəzində saxlanılıb. Məqalələrdə dövlətimizin başçısının iki qardaş ölkə arasında hərbi əməkdaşlığın ən yüksək səviyyəyə çatdığı, ölkələrimiz arasında Müttəfiqlik haqqında Bəyannamənin imzalandığı, Azərbaycan Ordusunun Türkiyə ordusu nümunəsində modernləşdirilməsi, birgə hərbi təlimlərin uğurla təşkil olunması barədə fikirlərinə geniş yer verilib. Bununla yanaşı, yazılarda Azərbaycan Prezidentinin ölkəmizin ərazisində Türkiyənin hərbi bazasının yaradılmasına lüzum qalmaması barədə fikri xüsusilə ön plana çıxarılıb.

Prezident İlham Əliyevin fikirləri Serbiya mətbuatının da diqqət mərkəzində qalmaqdadır. “Vaseljenska” saytı dövlətimizin başçısının Cozef Borreli Azərbaycandan uzaq durmağa çağırdığı, Ermənistanla bağlı, eləcə də Gürcüstandakı mövcud siyasi vəziyyətə toxunduğu, ölkəmizlə Ermənistan sərhədində NATO tərəfindən infrastruktur yaradıldığını vurğuladığı bildirilir.

Azərbaycan Prezidentinin Cozef Borrellə bağlı bu fikirlərinə yer verilib: “Borreldən sitat gətirmişəm ki, o, Avropanın çiçəklənən bağ, qalanların isə cəngəllik olduğunu bildirib. Mən isə dedim ki, əgər biz cəngəllikiksə, bizdən uzaq durun. Ümumiyyətlə, Borrelə gəldikdə, düşünürəm ki, o, bir neçə onillik əvvəl yaşasaydı, diktator Frankonun yaxşı xarici işlər naziri olardı. Onun, sadəcə, başqa zamanda yaşamaqla bəxti gətirməyib”.






“Centralasia.media” portalında və Malayziyanın “The Sun” nəşrində dərc olunan məqalələrdə dövlətimizin başçısının Azərbaycan-Ermənistan sərhədində Avropa İttifaqının nümayəndələrinin iki ay müddətində 40 nəfərlik məhdud kontingentinin olacağı məsələsinin razılaşdırıldığı, lakin sonradan Azərbaycanla razılaşdırılmadan bu missiyanın müddətinin uzadılması barədə fikrinə də yer verilib: “...arqument bundan ibarət idi: niyə sizinlə razılaşdırmalıyıq, axı, bu missiya Ermənistan ərazisindədir. Bizim isə arqumentimiz belə idi: razılığa gələndə siz niyə bizimlə razılaşdırdınız? Axı, belə olmaz. Sonra onların sayı 200 nəfərdən çox artırıldı. Bundan başqa, bu missiya tədricən NATO-nun missiyasına çevrildi, belə ki, oraya Kanadanın nümayəndələri qoşuldu”.

“Centralasia.media” nəşri Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsinin imzalanması istiqamətində 17 mübahisəli məsələdən 15-nin artıq razılaşdırıldığını vurğuladığı qeyd olunub. Bundan başqa, Ermənistanın KTMT-dən çıxmaq üçün bəhanələr axtardığını və Vaşinqtondan siqnal gözlədiyini qeyd etməsi xüsusilə vurğulanıb. “Ukraina.ru”, “1tv.ge”, “Dailymoscow.ru”, “Sila-rf.ru”, “Turkic.world” saytları Avropa İttifaqının xarici məsələlər üzrə nümayəndəsi Cosef Borrelin Avropanı çiçəklənən bağa, qalanlarını isə cəngəlliyə oxşatması barədə fikrini xatırladan Prezident İlham Əliyevin aşağıdakı fikrini sitat gətirib: “...Borrelə gəldikdə, düşünürəm ki, o, bir neçə onillik əvvəl yaşasaydı, diktator Frankonun yaxşı xarici işlər naziri olardı. Onun, sadəcə, başqa zamanda yaşamaqla bəxti gətirməyib”.

Şərqi Avropa, Mərkəzi Asiya, Afrika və Yaxın Şərqin iqtisadi, siyasi həyatı ilə bağlı xəbərlər yayımlayan “IntelliNews” nəşrində dərc olunan məqalədə Prezident İlham Əliyevin müsahibədə Fransanın Ermənistanı silahlandırması, Qərb dövlətlərinin Cənubi Qafqazda sabitliyin pozulması ilə bağlı cəhdləri barədə fikirləri ətraflı təhlil olunub. Məqalədə Prezident İlham Əliyevin Azərbaycanda bəzi regionlarda nadir hal olan milli köklərə və ənənəvi dəyərlərə sadiqliyin güclü olması və bəşəriyyət üçün təhlükəli olan bu tendensiyanın qarşısının alınmasının vacibliyi barədə fikirləri diqqətə çatdırılıb: “Dünyada gördüyümüz tendensiyalar, o cümlədən Trampın Prezident seçilməsi məhz onu göstərən amildir ki, o, elə bizimlədir. Necə deyərlər, ənənəvi dəyərlərə münasibətdə bir qayıdışdayıq. Zənnimcə, bəşəriyyət üçün fəlakətli olan tendensiyanı tərsinə çevirə biləcəyik, bax bu, pozğunluq, nümayişkaranə iblislik ki, biz onu Paris Olimpiadasının açılışında gördük. Bu halların qarşısı alınmalıdır”.

Gürcüstanın “Civil.ge”, “Sakartvelosambebi.ge”, “Interpressnews.ge” portalları Prezident İlham Əliyevin Gürcüstanda baş verən hadisələrdə Emmanuel Makronun da əli olduğunu qeyd etməsi, hazırda qonşu ölkədə vəziyyətin sabitləşməsi barədə fikirləri geniş işıqlandırılır: “Gürcüstanda vəziyyət sabitləşir. Biz buna şadıq. Gürcüstan bizim üçün çox mühüm tərəfdaş və yaxın dostdur. Uzun əsrlərdir ki, xalqlarımız sülh və əmin-amanlıq şəraitində yaşayır. Ona görə də Gürcüstanda sabitliyin pozulması və ya sabitliyin pozulması təhlükəsi Gürcüstan üçün olduğu kimi, Azərbaycan üçün də zərərlidir. Bu səbəbdən biz öz tərəfimizdən çalışırıq və bütün addımları atırıq ki, Gürcüstanda vəziyyət siyasi məcrada sabit olsun, Gürcüstan uğurla inkişaf etsin... Yaxşıdır ki, indi şərait artıq sabitləşməyə doğru gedir. Amma gördüyünüz kimi, yenə də Makronun qulaqları







görünür. Adam öz ölkəsində otura bilmir. Mütləq Gürcüstana da əl uzatmalıdır”.

“Moldova-news.com” portalı Prezident İlham Əliyevin müsahibəsində Azərbaycan-Rusiya əməkdaşlığı, rus dilinin dəyəri, NATO ilə Rusiya arasında müharibə ehtimalı, Fransanın neokolonializmindən, bölgədə vəziyyət, Ermənistan ilə sülh danışıqları və digər məsələlər barədə fikirlərini geniş işıqlandırıb.



# Ermənistanın “sülhməramlı” müharibəsi

***Ermənistan çoxvektorlu siyasət yürütdüyünü düşünür. Gah nala, gah mıxa vurur. Həm Rusiyanın yanında olduğunu sübut etmək üçün Moskvaya tələsir, gah da Trampın Fransaya səfərindən sui-istifadə edərək Parisə qaçır. Paşinyan düşünürdü ki, ABŞ-ın yeni prezidenti Ermənistanın baş nazirini görən kimi kilsənin açılışını da unudacaq və Azərbaycanı cəzalandırmanın yol və üsullarını Paşinyanla müzakirə edəcək. Amma belə olmadı, Paşinyan Trampla çəkdirdiyi fotoda yazıq, kimsəsiz uşaq təsiri bağışlaması diqqətdən yayınmır.***

Məlum olur ki, baş nazir indiki prezident Baydenlə olan izdivacının Trampla davam edib-etməyəcəyinə aydınlıq gətirmək məqsədilə Parisə gedib. Görünür Paşinyan lazım olan cavabı tam olaraq almayıb.

Ermənistan tərəfdaşlıqda etibarsızdır, bu “keyfiyyətləri”nə görə bu ölkəyə investisiya qoyan ölkələrin sırası çox seyrəkdir. Amma erməni dövlətinin özünü məzlum göstərmək məharəti onun işinə hələ də yarayır. Din qardaşlığından yararlanan İrəvan ehtiyaclarını qismən ödəyə bilir. Amma nə vaxta qədər? Bu sual erməniləri də düşündürür. Ermənistanın Rusiyadan asılılığı yeni xəbər deyil, bu qondarma dövlətin Azərbaycanın torpaqları hesabına yaradılması faktdır. Ermənilərin Qafqaza, xüsusən də Azərbaycan ərazilərinə köçürülməsində Çar Rusiyasının rolunu da yəqin ermənilər danmaz. Amma indi nə baş verir? 44 günlük müharibədə daha geniş ərazilər ələ keçirmək planları pozulan ermənilər məğlubiyyətin günahını ağaları rusların ayağına yazmaqla bu dəfə Qərbin qucağına tələsirlər.

Ermənistana Qərbin və Rusiyanın, iki rəqib, düşmən cəbhənin münasibəti də anlaşılan deyil. Qər Rusiyaya tətbiq etdiyi sanksiyaların sayını artırdıqca İrəvanla Moskvanın bağları daha da möhkəmlənir. ABŞ və Avropa İttifaqının Cənubi Qafqazda əsas ”dost”u sayılan Ermənistanın sanksiyalardan yayınaraq Rusiya ilə partyorluq etməsi, Şimal qonşumuzun dünya bazarında xırıd etmək istədiyi qeyri-neft sektoruna aid qızıl ticarətini İrəvanın birbaşa yardımı ilə reallaşdırması da deyəsən onları narahat etmir. Yaxud bu da planın bir hissəsidir.

### Bu arada...

NATO-nun 170 minlik hərbi kontingenti Ukraynaya girəcək. Bir neçə min hərbçi isə Ermənistandan olacaq. NATO qoşunlarının Ukraynaya daxil olması prosesi mütləq həyata keçiriləcək. Necə deyərlər, 40 min yox, 150 min, hətta 170 min hərbçi Ukrayna ərazisinə daxil olub, təmas xəttinə yerləşdiriləcək. Ancaq bu, yalnız müqavilə bağlanandan sonra baş tutacaq. Onlar Fransadan olacaq. Bu əməliyyatın təşəbbüskarı Fransa prezidenti Emmanuel Makrondur. Həmçinin Böyük Britaniya, Polşa, Latviya, Litva, Estoniya, Niderland, Norveç, Danimarka, İsveç və Finlandiyadan hərbçilər cəlb ediləcək. Ermənistanın da iştirakı istisna edilmir, çünki Makron artıq Nikol Paşinyana müraciət edib və sonuncu müsbət cavab verib. Bu, əlbəttə, “dəhşətli sirr”dir: Ermənistandan bir neçə min əsgərin Ukraynaya gələcəyi istisna edilmir.

Aİ-nin cümə axşamı Brüsseldə keçiriləcək ilin sonuncu sammitində Ukraynadakı vəziyyət və prezident Bəşər Əsədin devrilməsindən sonra “Suriya məsələsi” müzakirə olunub. Aİ-yə üzv olan 27 ölkənin liderləri ABŞ-ın yeni administrasiyası Kiyevi dəstəkləməkdən imtina edərsə, Ukraynaya yardım imkanlarını müzakirə edidlər, Aİ-nin yüksək rütbəli rəsmisi görüşdən əvvəl mətbuata bildirib ki, Avropa Şurasının prezidenti Antonio Kosta ilk dəfə sammitə ev sahibliyi edib. Gözlənildiyi kimi sammit onun Aİ-yə üzv ölkələrin liderlərinə sammitə dəvət məktubu göndərməsindən sonra baş tutub. Kosta vurğulayıb ki, Aİ lazım olduğu qədər qalacaq və bunun üçün mümkün olan hər şeyi edəcək. Bundan əlavə, sammitdə Aİ-nin dünyada yeri müzakirə olunub.

İordaniya kralı II Abdullah və İsrail prezidenti İsaak Hersoqla söhbətindən sonra Kosta Aİ liderlərinə məlumat verib ki, sammitin gündəliyinə təcili olaraq Suriyadakı vəziyyətin müzakirəsi daxil edilib. Onun sözlərinə görə, sammit Ukraynaya vahid və birmənalı dəstək siqnalı göndərmək üçün yeni mühüm fürsət olub. Üstəlik, prezident Vladimir Zelenski “yerdəki son hadisələri və Avropanın Ukraynaya ən yaxşı şəkildə necə dəstək verə biləcəyinə dair fikirlərini bölüşmək üçün” Avropa Şurasının iclasına dəvət olunub.

Məlum olub ki, Avropa İttifaqı 2025-ci ildə Ukraynaya daha 30 milyard yardım ayırmağa qərar verib ki, bu da Rusiya Federasiyasının xüsusi hərbi əməliyyatı başlayandan indiyədək Rusiyanın dondurulmuş aktivlərindən mənfəət kimi alınan vəsaitdən verilmiş 130 milyard avrodan əlavə, 18,1 milyard avrodur. Baş diplomat qeyd edib ki, Aİ Ukraynaya təkcə hərbi yardımla deyil, həm də enerji təhlükəsizliyi sahəsində yardım göstərməli, eyni zamanda Rusiyaya qarşı sanksiya təzyiqlərini artırmalıdır. “Aİ Ukraynanı dəstəkləməlidir ki, vəziyyətin gələcək inkişafı üçün mümkün olan ən güclü mövqeyə malik olsun. Bizim mövqeyimiz: Ukraynasız qərar qəbul oluna bilməz”, - o əlavə edib.

O, xüsusilə vurğulayıb ki, Donald Trampın Ağ Evə qayıdışını nəzərə alaraq, 27 ölkə formatında müzakirələrdən biri Ukraynanı müstəqil dəstəkləmək lazım gələrsə, nə etmək olar. Adının açıqlanmasını istəməyən başqa bir avropalı diplomat deyib ki, Fransa prezidenti Emmanuel Makron atəşkəs və Moskva ilə Kiyev arasında sülh əldə olunacağı təqdirdə Ukrayna ərazisində sülhməramlı missiyanın yerləşdirilməsi məsələsini müzakirəyə çıxaracaq. Açıq şəkildə olsa da, bir çox Aİ rəsmiləri bu müzakirələrin tez olduğunu deyiblər. Ancaq sülhməramlıların mövzusu hələ də çox “xam”dır və ideya səviyyəsindədir. Xüsusilə, Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə yeni ali nümayəndəsi Kaja Kallas bu istiqamətdə danışıb.

Əvvəla, Makronun bu mövzunun artıq qaldırıldığı Polşaya son səfərini nəzərə alsaq, sülhməramlılarla bağlı müzakirələr açılmazdır. İkincisi, Trampın ABŞ-da hakimiyyətə gəlməsi, onunla Ukrayna ətrafındakı vəziyyəti müzakirə etməyə hazırlaşmaq və sülh danışıqlarında Aİ-nin iştirakını təmin etmək zərurəti var. Reuters diplomatlara istinadən xəbər verir ki, Paris ”hərəkət etməkdə qərarlı olan” beş-səkkiz Avropa ölkəsindən ibarət koalisiya yaratmağa çalışır. Makronun təşəbbüsünü həyata keçirmək üçün beş briqadadan və ya təxminən 40 min nəfərdən ibarət qüvvə tələb olunacaq. Qeyd olunur ki, Makron Polşanın baş naziri Donald Tuskdan başqa, artıq Ukrayna ərazisinə missiya göndərilməsi ilə bağlı fikirlərini Britaniya hökumətinin başçısı Key Starmer, Şimali Avropa və Baltikyanı ölkələrin nümayəndələri ilə müzakirə edib.

Suriyadakı vəziyyətə gəlincə, Kostanın sözlərinə görə, insan hüquqlarına hörmət, azlıqların qorunması və ölkənin ərazi bütövlüyü, Rusiya təsirindən, xüsusən də Rusiyanın Suriyadakı hərbi bazalarından qurtulmaq Aİ üçün əsasdır. Kallasın sözlərinə görə, onurğa sütunu terrorçu kimi tanınan və Rusiyada və bir çox ölkələrdə qadağan olunmuş “Həyat Təhrir əş-Şam” qruplaşması olan Suriyanın yeni hakimiyyət orqanlarının qeyri-müəyyən beynəlxalq statusu onlarla danışıqlar aparmamaq üçün səbəb deyil. “Bizim üçün təkcə onların sözləri deyil, həm də hərəkətləri vacibdir” deyən Avropa diplomatiyasının rəhbəri vurğulayıb. Əlavə edib ki, gələcək həftələr və aylar Suriyanın yeni hakimiyyət orqanlarının düzgün istiqamətdə hərəkət edib-etmədiyini göstərəcək.

Çərşənbə axşamı Strasburqda Avropa Parlamentinin plenar iclasında çıxış edən Kallas bildirib ki, Avropa İttifaqı tezliklə Suriya ilə bağlı yenilənmiş strategiyanı təqdim edəcək. Onun əsas komponentləri Aİ sammitində razılaşdırılacaq. Bundan əlavə, Suriyanın və bütün Yaxın Şərq regionunun gələcəyi ilə bağlı Brüsseldə keçiriləcək 9-cu konfransa hazırlıqlara başlanılıb.

Rusiya Beynəlxalq Əlaqələr Şurasının elmi direktoru Andrey Kortunovun verdiyi məlumata görə, Aİ təbii ki, Suriyanın ərəb dünyasının tam mərkəzində siyasi ekstremizmin və beynəlxalq terrorizmin yeni əsas ocağına çevrilməsindən qorxur. Səddam Hüseyn rejiminin devrilməsindən sonra İraqın faciəli taleyi xəbərdarlıq rolunu oynayır. Brüssel üçün Suriyadan Avropaya çata biləcək yeni miqrasiya dalğasının qarşısını almaq daha vacibdir. Eyni zamanda, arzuolunandır ki, hazırda ”Köhnə Dünya”da olan bir neçə milyon suriyalı qaçqından ən azı bir qismi öz evlərinə qayıtsın və ölkənin yenidən qurulmasında iştirak etsin.

**V.VƏLİYEV**



# “Prezidentin bəyanatı ayrı-ayrı ölkələrə mesaj kimi qəbul oluna bilər"

***"Prezident “Rossiya Seqodnya” Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru “Vesti nedeli” proqramının müəllifi və aparıcısı Dmitri Kiselyova verdiyi müsahibədə bir sıra məsələlərlə bağlı ölkənin rəsmi mövqeyini ortaya qoymuş oldu. Bu müsahibə özündə bir sıra mühüm mesajları ehtiva etdi deyə bildirik". Bu sözləri SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov deyib.***

O bildirib ki, Azərbaycan-Rusiya, Azərbaycan-Türkiyə münasibətləri, Rusiya-Ukrayna cəbhəsində baş verənlər, Ermənistanla nəzərdə tutulan sülh sazişi ilə bağlı detallar, Avqopa İttifaqı müşahidə missiyasının fəaliyyəti, soydaşlarımızın Qərbi Azərbaycandan qovulması və onların hüquqları, Gürcüstanda hazırki vəziyyət, Fransanın regionda oynadığıkı destruktiv fəaliyyəti və bir sıra digər məsələlərlə bağlı olduqca maraqlı açıqlamaların şahidi olduq: ”Müsahibənin ən vacib məqamlarından biri Rusiya ilə NATO arasında baş verə biləcək müharibə ehtimalı ilə bağlı oldu. Cənab Prezident Azərbaycanın NATO və Rysiya arasında gərgin münasibətlərin aradan qaldırılması üçün töhfə verə biləcəyinin anonsunu verdi. Həqiqətən də ölkəmizin istər Qərbdə, istərsə də Şərqdə müstəqil xarici siyasət yürüdən, tamamilə müstəqil mövqeyə malik ölkə olaraq qəbul edilməsi, eləcə də həm Rusiya, həm də NATO üzvü olan Türkiyə ilə münasibətləri vasitəçi ölkə qismində çıxış etmək imkanı verir.

Müsahibədə diqqət çəkən məqamlardan biri ölkəmizdə Türkiyənin hərbi bazasının yerləşdirilməsi ehtimalı ilə bağlı oldu. Məlumdur ki, Türkiyə Azərbaycan ordusunun hərbi potensialının artırılmasında əvəzsiz xidmətləri olan bir ölkədir. Türkiyənin Azərbaycan Ordusunun müasirləşdirilməsində, NATO standartlarına keçməsində, döyüş qabiliyyətinin artmasında çox böyük rolu var. Bununla yanaşı Türkiyə ilə Azərbaycan arasında imzalanmış Şuşa Bəyannaməsi var və bu Bəyannamədə də təhlükə və ya təcavüz zamanı qarşılıqlı hərbi yardımı nəzərdə tutan bənd var. Yəni, bu, həm Azərbaycanın, həm də Türkiyənin bir öhdəliyidir ki, əgər bu və ya digər ölkə xarici təhlükə və xarici təcavüzlə üzləşsə, köməyə gəlməlidir. Buna görə də, Bəyannamənin həmin bəndi mahiyyət etibarilə bu və ya digər ərazidə hər hansı daimi hərbi infrastrukturun yaradılmasını tamamilə lüzumsuz edir. Prezidentin bu bəyanatı müxtəlif adlar altında ərazilərimizə hərbi birliklər yerləşdirmək istəyən ayrı-ayrı ölkələrə mesaj kimi də qəbul oluna bilər”.

Onun sözlərinə görə, Prezident həmçinin Azərbaycan və Ermənistan arasında aparılan danışıqlar və əldə edilən razılaşmalarla bağlı da vacib məqamlara toxundu: ”Məlumdur ki, həm Azərbaycan, həm də Ermənistan rəsmi şəkildə sülh sənədinin 17 maddəsindən 15-i ilə bağlı razılıq əldə olunduğunu bəyan ediblər. Yerdə qalan məsələlərlə bağlı isə hələ ki, ümumi razılaşmaya nail olmaq mümkün olmayıb. Cənab Prezident də məhz həmin məqamların nədən ibarət olduğunu bəyan etdi. Məlum oldu ki, vacib məqamlardan biri Beynəlxalq məhkəmələrdə olan qarşılıqlı iddialarla bağlıdır. İşğal dövründə Ermənistan tərəfindən Azərbaycana vurulan zərərin həcmi 150 milyarddan çoxdur. Ermənistan tərəfi isə hər vəchlə bu zərərlə bağlı öhdəlik götürməkdən yayınmaq istəyir. Daha bir məsələ Avropa İttifaqı müşahidə missiyası adı altında sərhədlərə yerləşdirilmiş xarici qüvvələrlə bağlıdır. Prezident açıq şəkildə bəyan etdi ki, bu missiya regionda sülhün genişləndirilməsinə xidmət edən faktor kimi çıxış etmir. Üçüncü ölkənin sərhəddə olması, bir tərəfdən iki ölkə arasında vəziyyətin gərginləşməsinə, digər tərəfdən isə Avropa İttifaqının Cənubi Qafqazda hərbi faktor kimi ortaya çıxmasına səbəb olur. Bu isə yolverilməzdir. Çünki bəzi Avropa ölkələri Aİ missiyası adından çıxış edərək, əslində özlərinin Cənubi Qafqaz maraqlarını təmin etmək üçn planlar həyata keçirirlər.”

***Söylü Ağazadə***

# Bakının ən ucuz yarmarkalarında BAYRAM QİYMƏTLƏRİ

Hər il Yeni ilə həsr olunan bayram yarmarkası bu il də təşkil olunub. Bayram yarmarkası hər zamanki kimi öz canlılığı ilə diqqət mərkəzindədir. Burada xeyli sayda yolka, Yeni il aksesuarları, suvenirlər, Yeni il hədiyyələri və digər məhsullar satışdadır. Bu il yarmarkada yeni məhsullar, fərqli dizayna malik Yeni il aksesuarları, həmçinin müxtəlif suvenirlər alıcıların marağına səbəb olub. Xüsusən də 2025-in ”ilan” ili olması yarmarkaya öz ab-havasını qatıb. Bəs bunlarla bərabər yarmarkada keçən ilə nisbətən qiymətlərdə dəyişiklik varmı? Alıcılar qiymətlərdən razıdırmı? SİA yarmarkada satıcı və alıcıların fikirlərini öyrənib.

**Satıcı Güllər Əhmədova:** ”Xeyr, bizim yarmarkada artım yoxdur. Yolka, aksesuarlar standart qiymətdə qalıblar. Bizə qeyri-adi oyuncaqlar gəlməyib, keçən ilki kimi şablon aksesuarlar və digər məhsullar yer alır. Yolkaların qiymətinə gəldikdə isə hər kəsin cibinə uyğun münasib qiymətlər var. 25-500 manata qədər yolkalarımızın qiyməti dəyişir. Alıcılar isə bizdən hər zaman razı olublar. Satışa gəldikdə isə 70 faiz məhsullarımızı sata bilirik”.

**Satıcı Nəsim Mamedov:** ”Yeni il qabağı yarmarkada keçən ilə nisbətən qiymətlərdə dəyişikliklər var, amma belə çox deyil. Hardasa məhsullar 1-2 manat fərq var. Yarmarkaya da yeni aksesuarlar gəlib. Suvenirlərin qiyməti 3-30 manat, kiçik ölçülü yolkaların qiyməti isə 10-15 manat arası dəyişir”.

**Satıcı İbrahim Xasməmmədov:** ”Keçən ildən bu yana artımlar mövcuddur. Demək olar ki, xaricdən gələn bütün məhsullarımızda keçən il aldığımız qiymətdən iki qatına qədər artım olan məhsullarımız var. Hətta keçən il satdığımız qiymətə bu il həmin məhsulları alırıq. Hal-hazırda ölkədə bayramdır, təbii ki, hər kəs çalışır ki, öz övladına ən yaxşısını etsin. Əli gəlməyə-gəlməyə pulunu verən müştərilər görmüşəm. Bizim yarmarkada yeniliklər çoxdur”.

**Alıcı Elçin Səlimov: ”Hələ ki,** Yeni il bazarlığı etməmişəm. Qiymət hər kəs bilir ki, bahadır. Keçən il bayram qabağı alış- veriş edəndə bilirdik ki, qiymətlər necədir. Lakin bu il hələ etməmişəm deyə, keçən ilə nisbətən qiymətlərin dəyişib-dəyişmədiyini bilmirəm. Onsuz hər il qiymətlər qalxır. Yeni ili isə ailəmlə keçirəcəm”.



**Alıcı Mehriban Bəkirova:** ”Qiymətlər bahadır, ala bilmirik. Demək olar bütün məhsullar bahadır.Yolkaların qiymətindən də razı deyiləm. Bu il hər şey baha olduğu üçün heçnə almamışam. Qiymət keçən ilə nisbətən çox bahadır. Yeni ildə istirahət etməyə imkan yoxdur”.

**Alıcı Aynurə Cəfərova:** ”Çeşidlər çoxdur, qiymətlər də başqa yerlərə nisbətən yaxşıdır, amma yenə də büdcəyə görə bahadır. Burada qiymətlər başqa yerə görə bahadır, lakin yenə də azərbaycanlı büdcəsinə görə çoxdur. Bu il çox qəşəng aksesuarlar, yolkalar, oyuncaqlar var. Aksesuarlar almışam, amma yolka varımdı deyə qiymətləri ilə maraqlanmamışam. Yeni ili isə ailəmlə evdə, yaxud restorana gedərək qeyd edərik”.

**Alıcı Nəcibə Səfərova:** ”Yeni il yarmarkasında qiymətlərdən razıyam, hər şey normaldır. Elə də dəyişiklik yoxdur, ancaq ”İlan ili” ilə əlaqədar oyuncaqlar var, qalan hər şey eynidir. Keçən ilə nisbətən qiymətlər eynidir. Yeni il aksesuarları almışam. Yeni il əsas uşaqlar üçündür, onlar şənlənməlidir, nəvələrimiz üçün yaşayırıq. Yarmarkanı gəzib nəvələrim üçün hədiyyələr almaq istiyirəm, bayram axşamı sürpriz edəcəm”.

Qeyd edək ki, yarmarkanı gəzdiyimiz müddətdə orda olan insanların fikirlərini öyrəndik. Qiymətlər kimisi üçün normal, kimisi üçün də bahadır. Lakin ümumi nəticəyə gəldikdə keçən ilə nisbətən bu il həm qiymətlərdə artım, həm də yeni və qeyri- adi aksesuarların gəldiyini müşahidə edirik.

***Xeyrənsə Piriyeva***

## Elektromobillər, yoxsa ənənəvi avtomobillər daha etibarlıdır?



“Elektron nəqliyyatlar ekologiyanın dostudur”. Bu sözləri SİA-ya açıqlamasında nəqliyyat eksperti Aslan Əsədov deyib. O bildirib ki, dünyada elektron nəqliyyata maraq çox yüksəkdir: ”Bunun əsas səbəblərindən biri də dünyada baş verən inteqrasiya, müasirləşmə, intervallaşma bu və digər formada nailiyyətdir. Ona görə də bu gün dünya nəqliyyat sistemində müasir işlər davam edir, müasir görüşlər və proqramlaşdırma təminatlarında uğurlu nəticələr əldə olunur. Həmçinin ölkəmizdə də kifayət qədər maraq artıb.

Elektron nəqliyyatın üstünlükləri birinci, yanacağa sərfi, ondan az yanacaq ilə böyük faydalı iş əmsalına malik olmalıdır. Yəni faydalı iş əmsalı daha yüksək olur, daha çevik olur. Onun üçün də bu özəlliklər ona aiddir, əlamətlər ona xasdır. Elektron nəqliyyatların almağa, təbii ki, zavod standartları bir problem yaranmayan ümumi olaraq insanlar üçün problem yaradıcısı olmayan elektron nəqliyyat vasitələri elə də alınmır, onların üstünlükləri yanacağa sərfiyyatı, iş prinsipləridir. Mənfi tərəflərinə gəldikdə isə elə də çox deyil. Əsas da yanacaqla bağlı, yeni bateriya sistemi ilə bağlı müəyyən narazılıqlar ola bilər, lakin bu da ciddi bir şey deyil. Bəzi insanlar seçim qarşısında qalır dedikdə, məncə, zavod istehsalı olan nəqliyyat vasitələri üçün seçim necə deyərlər ”yox” cavabı olmamalıdır. Çünki bu sistemlər müasir sistemlərə arxayınlaşır. Sadəcə qiymət fərqi var, sistemlərin bahalı olması insanlar üçün qiymət cəhətdən faydalı olmaya bilər. Ekologiyaya zərərləri dedikdə isə əksinə ekelogiyanın dostu sayılır. Çünki bu avtomobillər kifayət qədər dözümlü, yanacaq sərfiyyatını az işlədir. Ona görə də, müsbət tərəflərini daha çox qiymətləndirirəm, nəin ki mənfi tərəfləri.

Elektron nəqliyyatın bütün növləri dünyada varsa, təbii ki, bizdə də var. Bu proseslər sürətlə inkişaf etməkdədir. Həmçinin proseslərin simulyasiya edilməsi, sistemə oturulması çox müsbət addımlardan biridir. Düşünürəm ki, bu proseslər gələcəkdə də davam edəcək. Demək olar ki, Azərbaycan dünyanın vahid bir sistemi, hissəsidir. Dünyada nə yeniliklər olursa, Azərbaycana da gəlir və bundan istifadə olunur”.

***Xeyrənsə***

# Azərbaycanın növbəti diplomatik uğuru




Azərbaycanın hərtərəfli və dinamik şəkildə inkişafı, müstəqil, çoxşaxəli və milli maraqlara söykənən xarici siyasət kursu onun Cənubi Qafqaz regionunun ən çox inkişaf etmiş ölkəsi olaraq qalmasını təmin edib. Bu gün Azərbaycan düşünülmüş və milli maraqlara söykənən xarici siyasəti ilə regional təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl və sistemli addımlar atır. Hazırda Azərbaycan dövlətinin həyata keçirdiyi enerji layihələri, regional inteqrasiyaya xidmət edən əməkdaşlıq formatları Cənubi Qafqazda sabitliyin təmin edilməsində mühüm rol oynayır. Prezident İlham Əliyevin güclü siyasi iradəsi sayəsində Azərbaycanın bütün dünya miqyasında nümunəvi sayılan və bir sıra mütərəqqi cəhətləri ilə fərqlənən yeni keyfiyyətli inkişaf modeli formalaşıb. Həyata keçirilən davamlı islahatlar sayəsində Azərbaycan ötən müddətdə ölkənin iqtisadi müstəqilliyinin təmin olunması yolunda inamlı addımlar atıb. Ölkədə müasir çağırışlarla səsləşən, kreativ yanaşmalara geniş meydan verən sərbəst bazar iqtisadiyyatına transformasiya prosesi uğurla yekunlaşıb. Ötən dövrdə neft gəlirləri hesabına ölkənin maliyyə imkanlarının genişlənməsi fonunda aktiv şəkildə əsas kapitala kifayət qədər irihəcmli investisiyalar yönəldilib. Azərbaycanın son illərdə həyata keçirdiyi iqtisadi siyasət və islahatlar ölkəni regionda lider dövlətlərdən birinə çevirib. Prezident İlham Əliyevin rəhbərliyi ilə regionda həyata keçirilən bütün beynəlxalq və irimiqyaslı layihələr Azərbaycanın milli maraqları nəzərə alınmaqla reallaşır. Bu gün Prezident İlham Əliyevin qüdrətli rəhbərliyi ilə Azərbaycan dünyada, xüsusilə Avrasiyada mühüm iqtisadi və siyasi oyunçu və güc mərkəzinə çevrilib.

## AZƏRBAYCAN YEKDİLLİKLƏ D-8 TƏŞKİLATININ ÜZVÜ SEÇİLİB

Bu günlərdə Azərbaycanın növbəti diplomatik uğuru – D-8 təşkilatına üzvlük ölkəmizin müstəqillik tarixində beynəlxalq diplomatik uğurlar sırasına daxil olan növbəti əlamətdar hadisə kimi yadda qalıb. Misirin paytaxtı Qahirə şəhərində İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) XI Sammiti zamanı Azərbaycan Respublikası yekdilliklə D-8 təşkilatının üzvü seçilib. Bu, D-8 yarandığı gündən təşkilatın sıralarının ilk genişlənməsi kimi əlamətdardır. Üç qitəni əhatə edən, 4 trilyon ABŞ dollardan artıq ÜDM-ə malik, 130 milyard ticarət dövriyyəsi həyata keçirən, üzvlərinin əhalisinin sayının ümumilikdə dünya müsəlmanlarının 60%-ni təşkil edən (ümumi əhali 1,2 milliardan artıqdır) və böyük iqtisadi potensiala malik "İslam Səkkizliyi" adlanan D-8-ə ölkəmizin üzvlüyü Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun və ölkəmizə olan etimadın bariz nümunəsidir. Bu, Prezident İlham Əliyevin qətiyyətli və uğurlu xarici siyasətinin məntiqi nəticəsidir. Müasir Azərbaycan Respublikasının memarı və qurucusu olan Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş xarici siyasət strategiyası bu gün möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Əminliklə deyə bilərik ki, Ulu Öndərin hazırladığı mükəmməl xarici siyasət strategiyası Azərbaycanı bütün regional məsələlərdə söz sahibi olan müstəqil dövlətə çevirdi. Ümummilli Liderin siyasi kursunu layiqincə davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevin uğurlu diplomatik fəaliyyəti nəticəsində Azərbaycanın dünya birliyindəki nüfuzu daha da artdı. Bu gün regiondakı hər hansı bir strateji əhəmiyyətli layihə Azərbaycanın rəyi olmadan gerçəkləşə bilməz.

## XARİCİ SİYASƏTDƏ BİR-BİRİNİ TAMAMLAYAN ELEMENTLƏR

Prezident İlham Əliyev ilk dəfə olaraq fəxri qonaq qismində İstanbulda D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının IX Zirvə görüşündə xüsusi qonaq qismində iştirak edib. Azərbaycanın D-8-ə qoşulması, ölkəmizin multilateralizm siyasətinə sadiqliyini bir daha nümayiş etdirir. Bu, Azərbaycanın təşkilat çərçivəsində həm çoxtərəfli, həm də ikitərəfli formatda əlaqələrinin inkişafına təkan verəcək. D-8-ə üzvlük və İslam Əməkdaşlıq Təşkilatına üzvlük, ölkəmizin xarici siyasətində bir-birini tamamlayan elementlərdir. Azərbaycan dünyada həmrəyliyin, eləcə də islam həmrəyliyinin təmin edilməsinin tərəfdarı kimi çıxış edir. Bu gün Azərbaycan islam həmrəyliyi ideyalarına və mədəniyyətlərarası dialoq ənənələrinə sadiqdir. Azərbaycan öz əqidəsinə, milli dəyərlərinə sadiq bir dövlətdir. Azərbaycan islami dəyərlərə, islam dininə bağlı dövlətdir. Bunun nəticəsidir ki, müasir dövrümüzdə ölkəmizdə islami dəyərlər, multikulturalizm məktəbi və tolerantlıq yeni dövrünü yaşayır. Dünyada baş verən siyasi proseslər, müsəlman ölkələrindəki müharibə və münaqişələr, bəzi ölkələrdə islamofobiyanın yayılması islam dünyasında həmrəyliyin zəruriliyini bir daha əyani surətdə göstərir. Belə şəraitdə Azərbaycan dünyada həmrəyliyin, eləcə də islam həmrəyliyinin təmin edilməsinin tərəfdarı kimi çıxış edir. Ölkəmizin D-8 üzvlüyü bir daha sübut edib ki, Azərbaycan hazırda sürətlə inkişaf edən, davamlı ictimai-siyasi sabitliyə malik, yüksək iqtisadi göstəricilərə nail olan və dünya ictimaiyyətinin rəğbətini qazanan dövlətlərdəndir. Ədaləti və beynəlxalq hüququn norma və prinsiplərini özünün prioritet məqsədi kimi qarşıya qoyan ölkəmiz D-8-in təməl prinsiplərinin qorunmasına, təşkilat çərçivəsində əməkdaşlığın daha da dərinləşməsində mühüm rol oynayacaq.

## TƏŞKİLATIN YENİ HƏDƏFLƏRİ - "2020-2030 İLLƏR YOL XƏRİTƏSİ"

D-8 İqtisadi Əməkdaşlıq Təşkilatı səkkiz müsəlman ölkəni birləşdirir. Təşkilatın təməli Türkiyənin təşəbbüsü ilə 1996-cı il oktyabrın 22-də İstanbulda Banqladeş, İndoneziya, İran, Malayziya, Misir, Nigeriya və Pakistanın əməkdaşlığı ilə təşkil edilən İnkişaf Əməkdaşlıq Konfransında atılıb. 1997-ci il iyunun 15-də İstanbulda 8 ölkənin dövlət və hökumət başçılarının sammitində təşkilat rəsmən elan olunub. Katibliyi İstanbul şəhərində yerləşir. Təşkilatın yeni hədəfləri "2020-2030 illər yol xəritəsi" sənədində əks olunub.

Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla inkişaf etdirən Azərbaycan Prezidenti İlham Əliyevin yüksək diplomatik istedadı sayəsində son 21 il ərzində ölkəmizin dünyanın siyasi-iqtisadi mənzərəsini müəyyən edən aparıcı dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətləri keyfiyyətcə yeni müstəvidə daha da inkişaf etdirilib. Azərbaycan yalnız beynəlxalq regionda gedən proseslərdə deyil, eyni zamanda, beynəlxalq aləmdə cərəyan edən proseslərə də təsir göstərmək imkanı qazanmışdır. Hakimiyyətə gəldiyi ilk dövrdən dövlət başçısı İlham Əliyev beynəlxalq diplomatik səviyyədə Azərbaycanın mövqelərinin gücləndirilməsi və müxtəlif tərəfdaşlıqların qurulması işini yorulmadan davam etdirir.

***Zümrüd BAYRAMOVA***

# İcma: "Paşinyanın "Qərbi Azərbaycan" ifadəsinə irad tutması tamamilə əsassızdır"

***Ermənistanın Baş naziri Nikol Paşinyan "Armenpress" mətbuat orqanına 2024-cü il dekabrın 19-da verdiyi müsahibəsində Ermənistan və Azərbaycan arasındakı ikitərəfli münasibətlərə və Qərbi Azərbaycan məsələsinə dair bir sıra zərərli və həqiqətə uyğun olmayan fikirlər səsləndirib. AZƏRTAC xəbər verir ki, bu fikirlər Qərbi Azərbaycan İcmasının bəyanatında yer alıb.***

Bəyanatda daha sonra deyilir ki, "Baş nazirin Qərbi azərbaycanlıların öz doğma yurdlarına qayıdış məsələsini ərazi iddiası kimi təqdim etməyə çalışması və "Qərbi Azərbaycan" ifadəsinə irad tutması tamamilə əsassızdır. Vurğulamaq lazımdır ki, azərbaycanlıların əsrlərlə yaşadığı və Ermənistan tərəfindən total etnik təmizləməyə məruz qaldığı keçmiş İrəvan xanlığı, Zəngəzur və digər bölgələri əhatə edən "Qərbi Azərbaycan" ifadəsi həmin məkanda yaşamış azərbaycanlıların özünüidentifikasiya hüququ çərçivəsində istifadə etdikləri və tarixi həqiqətlərə söykənən bir termindir.

Qərbi Azərbaycan İcması qayıdış hədəfinə sülh yolu ilə, beynəlxalq hüququn norma və prinsiplərinə, o cümlədən dövlətlərin ərazi bütövlüyü və suverenliyinə hörmət çərçivəsində nail olmaq üçün çalışır. Bu baxımdan, İcmanın Ermənistan hökumətinə rəsmi şəkildə müraciət edərək dialoq təklif etməsi xüsusilə qeyd edilməlidir. Ermənistan hökuməti tərəfindən etnik təmizləmə, ayrı-seçkilik, mülkiyyət və digər hüquqlarının pozulmasına məruz qalmış Qərbi azərbaycanlıların ilk addımı ataraq dialoqa təşəbbüs etməsi onların barışıq və sülh yolunu tutduğunu göstərir. Ermənistan hökumətinin İcmanın dialoq təklifini cavabsız qoyması isə təəssüf doğurur. Apardığı silahlanma siyasətini suveren seçim kimi izah etməyə çalışan N.Paşinyana xatırlatmaq istərdik ki, revanşist və radikal ideologiyanın dərin kök saldığı Ermənistan hərbi güclə məsuliyyətlə davranmağı bacarmır. Bu və Ermənistanın aqressiv keçmişi nəzərə alınmaqla onun sərbəst şəkildə silahlanmasına yol vermək olmaz.

N.Paşinyanın Ermənistan Konstitusiyasında əks olunmuş ərazi iddiasını aradan qaldırmaqdan imtina etməsi, hələ bu azmış kimi guya Azərbaycan Konstitusiyasında Ermənistana qarşı ərazi iddiasının yer almasını bildirməsi onun sülh müqaviləsini imzalamaqda maraqlı olmadığını göstərir. Qərbi Azərbaycan İcması Ermənistan hökumətindən qayıdış hüququna hörmət etməyi, silahlanma siyasətinə dərhal son verməyi və ərazi iddiasını əsas sənədlərindən çıxarmağı tələb edir".

***Ölkəmizdə gəncliyə dövlət qayğısı sabaha və uğurlara hesablanan bir siyasətdir və bu siyasət sağlam və intellektual nəslin formalaşmasına xidmət edir. Nəinki Azərbaycanda, respublikamızdan kənarda da yaşayan, təhsil alan və hər hansı müəssisədə çalışan azərbaycanlı gənclər Azərbaycan Prezidenti İlham Əliyev siyasətinə, onun tələb və tövsiyələrinə həmişə sadiq və sədaqətli olmağa çalışırlar. SİA Prezident İlham Əliyevin gənclərə göstərdiyi diqqət, qayğı barədə Azərbaycanda fəaliyyət göstərən gənclər təşkilatları rəhbərlərinin fikirlərini öyrənib.***



# Prezident İlham Əliyevin fəaliyyəti GƏNCLƏRİN GÖZÜNDƏ



**“Vətəndaş Cəmiyyətində Debat” İctimai Birliyinin Milli Debat Proqramının rəhbəri Ərhun Baxış:** ”Azərbaycanın inkişaf strategiyasında gənclər siyasəti mühüm yer tutur. Ölkə Prezidenti cənab İlham Əliyev gənclərin bilik və bacarıqlarının artırılmasına, onların cəmiyyətin bütün sahələrində fəal iştirakına xüsusi diqqət yetirir. Onun rəhbərliyi ilə həyata keçirilən proqramlar gənclərin təhsil, məşğulluq, innovasiya və mədəniyyət sahələrində uğur qazanmasına şərait yaradır.

Cənab Prezident İlham Əliyevin gənclər siyasəti, həm qanunvericilik bazası, həm də konkret fəaliyyət proqramları vasitəsilə həyata keçirilir. 2005-ci ildə qəbul edilən “Gənclər siyasəti haqqında” qanun, bu sahədə strateji məqsədləri müəyyənləşdirərək gənclərin hüquqlarını qorumaq və onlara geniş imkanlar yaratmaq məqsədini daşıyır. Ölkədə aparılan təhsil siyasətinə nəzər yetirsən görərik ki, İlham Əliyev gənclərin təhsilinə böyük əhəmiyyət verir. “2007-2015-ci illərdə Azərbaycan Gənclərinin Xarici Ölkələrdə Təhsili üzrə Dövlət Proqramı” sayəsində minlərlə gənc dünyanın ən qabaqcıl universitetlərində təhsil almaq imkanı əldə edib. Bundan əlavə, ölkə daxilində təhsil infrastrukturunun yenilənməsi və rəqəmsal texnologiyaların tədrisə inteqrasiyası istiqamətində mühüm işlər görülüb. Paralel olaraq nəzər yetirsək görərik ki, ölkə başçısı gənclərin işlə təmin olunması və sahibkarlığa dəstək verilməsinə xüsusi diqqət ayırır. Startap mərkəzlərinin və inkubasiya layihələrinin yaradılması gənclərin innovativ ideyalarını həyata keçirməsinə imkan verir. Kənd yerlərində həyata keçirilən “Region Gənclərinin İnkişaf Proqramı” sosial bərabərliyin təminatında mühüm rol oynayır.

Cənab Prezident İlham Əliyev gənclərlə birbaşa ünsiyyətə və onların problemlərinin həllinə xüsusi diqqət ayırır. O, tez-tez gənclərlə keçirilən görüşlərdə iştirak edir, onların təşəbbüslərini dinləyir və dəstəkləyir. Prezidentin bu sahədəki fəaliyyəti onun yalnız siyasi lider deyil, həm də cəmiyyətin hər bir üzvünə qayğı göstərən humanist lider olduğunu nümayiş etdirir.

Onun rəhbərliyi ilə həyata keçirilən “Azərbaycan Gəncliyi 2017–2021-ci illərdə” Dövlət Proqramı çərçivəsində sosial həssas qruplara aid gənclərin ehtiyaclarının qarşılanması xüsusi diqqət mərkəzində saxlanılmışdır. Əlilliyi olan, valideyn himayəsindən məhrum olan və ya çətin həyat şəraitində yaşayan gənclərə dəstək verilməsi bu proqramın əsas məqsədlərindən biri olmuşdur.

Möhtərəm Prezident İlham Əliyevin gənclər siyasəti yalnız strateji bir yanaşma deyil, həm də Azərbaycan gənclərinə göstərilən dərin qayğının təzahürüdür. Təhsil, məşğulluq və sosial dəstək sahələrində həyata keçirilən layihələr gənclərin rifahını artırmaqla yanaşı, onların öz potensiallarını reallaşdırmasına şərait yaradır.

Azərbaycan gəncləri bu gün həm ölkə daxilində, həm də beynəlxalq arenada böyük uğurlar qazanırlar. Bu uğurlar ölkə başçısının gənclərə göstərdiyi qayğının və onların gələcəyinə yönəlmiş uzaqgörən siyasətinin nəticəsidir”.



**“Gənclərin Anti-Narkomaniya” İctimai Birliyinin sədri Büllur Məmmədova:** ”Bu gün ölkəmizdə idarəetmə bacarığı ilə seçilən intellektual, dünyagörüşlü yeni nəsil yetişib. Azərbaycan gəncliyi Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısındakı xidmətlərini yüksək qiymətləndirir, onun elmin, təhsilin inkişafına, ölkəmizin siyasi-iqtisadi yüksəlişinə, gənclərə olan diqqəti və qayğısını dərin ehtiram hissi ilə xatırlayır. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş siyasi kurs bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafına təkan verib, onların özlərini cəmiyyətdə təsdiq etməsində mühüm rol oynayıb. Bu siyasət çərçivəsində uğurla icra olunan bir sıra tədbirləri sadalamaqla biz gənclərimizin dövlətçiliyə bağlı, intelektual, yüksək dünyagörüşlü bir qüvvə kimi formalaşmasının şahidi oluruq.

Hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə gəncləri aparıcı qüvvəyə çevirmək və onların sosial-iqtisadi problemlərinin həllini təmin etmək məqsədilə böyük işlər görülür.

Gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında fəal iştirakını bir qədər də stimullaşdırmaq məqsədilə Prezident yanında Gənclər Fondu yaradılıb. Fondun qarşısında gənclər siyasəti ilə bağlı elm, təhsil, sağlam həyat tərzinin təbliği, mədəniyyət və digər sosial sahələrə yönəlmiş ictimai və sosial əhəmiyyətli, o cümlədən beynəlxalq səviyyədə həyata keçirilən layihə və proqramları qrant şəklində maliyyələşdirmək məqsədi qoyulub. Prezident İlham Əliyevin gənclərə dəstək yönündə verdiyi mühüm və əlamətdar qərarlardan biri də ölkədə ilk dəfə “Gənclər üçün Prezident Mükafatı”nın təsis edilməsidir”.



**“Gənclərin Maarifləndirilməsinə Dəstək” İctimai Birliyinin sədri Aynurə Salmanlı Ələkbərli:** ”Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkədə gənclərə göstərilən xüsusi diqqət və qayğı siyasəti ilə tanınır. Bu siyasət, Azərbaycanın inkişaf strategiyasının mühüm tərkib hissəsi olaraq, gənclərin hərtərəfli inkişafını təmin etmək və onların cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsinə şərait yaratmağı hədəfləyir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar və proqramlar gənclərin təhsil, idman, mədəniyyət, elm və texnologiya sahələrində fəaliyyət göstərmələrinə geniş imkanlar yaradır. Xüsusilə, “Azərbaycan Gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramı çərçivəsində həyata keçirilən layihələr gənclərin bilik və bacarıqlarının artırılması, onların özlərini cəmiyyətdə ifadə etmələrinə şərait yaratmışdır.

Prezident İlham Əliyevin idman sahəsində həyata keçirdiyi siyasət gənclərin fiziki və mənəvi inkişafına mühüm töhfə verir. Bu gün Azərbaycan, beynəlxalq idman yarışlarının keçirildiyi bir mərkəzə çevrilmişdir və bu tədbirlərdə Azərbaycan gəncləri uğurla iştirak edərək ölkəmizi layiqincə təmsil edirlər.

Prezident İlham Əliyev gənclərə güvəndiyini onların dövlət idarəetməsində aktiv iştirakını təmin etməklə nümayiş etdirir. Gənc liderlərin yetişdirilməsi, onların müxtəlif yüksək vəzifələrə təyin edilməsi gənclər siyasətinin effektivliyini təsdiqləyir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin gənclərə göstərdiyi qayğı, onların ölkənin gələcəyində mühüm rol oynayacağına olan inamın ifadəsidir. Bu siyasət yalnız bu gün üçün deyil, eyni zamanda gələcək nəsillərin rifahı üçün nəzərdə tutulmuş uzunmüddətli bir yanaşmadır".




**Azərbaycanlı Tələbələr və Məzunlar Platformasının (ASAP) ictimaiyyətlə əlaqələr üzrə meneceri Nahid Xəlilov:** "Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin təzahürüdür ki, bu gün müasir Azərbaycan gəncləri cəmiyyətin bütün sahələrində qlobal miqyasda uğurlar əldə edir. Onlar milli dəyərlərə sadiq qalaraq innovativ düşüncə və kreativ təşəbbüslərlə cəmiyyətin inkişafına müstəsna töhfələr verirlər.

Cənab Prezident İham Əliyevin gənclərə olan dəstəyinin mühüm istiqamətlərindən biri də onların xaricdə təhsil almaları üçün yaradılan şəraitdir. Hər il onlarla gənc "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"vasitəsilə dünyanın nüfuzlu universitetlərində oxumaq imkanı əldə edir. Bu təcrübə onlara yeni biliklər qazanmaqla yanaşı, fərqli mədəniyyətləri tanımaq və qlobal düşüncə tərzi formalaşdırmaq imkanı verir. Xaricdə təhsil almış gənclər Vətənə qayıtdıqda əldə etdikləri bilik və bacarıqları ölkənin inkişafına yönəldərək, müxtəlif sahələrdə yeniliklərə imza atırlar".




**Sosial İnkişafa Yardım İctimai Birliyinin İcraçı Direktoru Zakir Quliyev:** "Müstəqil Azərbaycanın inkişafında gənclər siyasəti mühüm əhəmiyyət kəsb edir. Prezident İlham Əliyev gənclərə xüsusi diqqət və qayğı göstərərək, onların potensialının üzə çıxarılması və cəmiyyətin fəal üzvlərinə çevrilməsi üçün ardıcıl tədbirlər həyata keçirir.

Bu gün gənclərin inkişafı üçün ölkəmizdə geniş imkanlar yaradılıb. Müasir təhsil müəssisələrinin fəaliyyətə başlaması, yeni idman komplekslərinin və gənclər mərkəzlərinin tikilməsi, müxtəlif dövlət proqramlarının həyata keçirilməsi bu diqqətin əyani nümunələridir. Xüsusilə, "Azərbaycan Gəncliyi 2017–2021-ci illərdə" Dövlət Proqramı gənclərin məşğulluq problemlərinin həlli, innovativ ideyalarının dəstəklənməsi və beynəlxalq tədbirlərdə fəal iştirakına böyük töhfə verib.

Prezident İlham Əliyev gənclərin milli-mənəvi dəyərlərə sadiq, eyni zamanda müasir dünyagörüşünə malik olmasının vacibliyini dəfələrlə vurğulayıb. Gənclərin həm təhsildə, həm idmanda, həm də ictimai fəaliyyətdə qazandıqları uğurlar dövlətin bu istiqamətdə apardığı ardıcıl siyasətin nəticəsidir.

Ölkəmizdə könüllülük hərəkatının genişlənməsi də dövlət başçısının təşəbbüsləri ilə sıx bağlıdır. Bu hərəkat gənclər arasında həmrəyliyin güclənməsinə və onların ictimai həyatdakı iştirakının artmasına şərait yaradır.

Gənclərə göstərilən bu diqqət onların yalnız şəxsi inkişafına deyil, eyni zamanda Azərbaycanın dayanıqlı inkişafına xidmət edir. Belə yanaşma sağlam, vətənpərvər və intellektual gənclər nəslinin formalaşmasına imkan verir ki, bu da ölkəmizin gələcək inkişafının əsas təminatıdır.

Bu baxımdan, Prezident İlham Əliyevin gənclər siyasəti hər bir gəncin öz potensialını reallaşdırması üçün geniş imkanlar açır və onları gələcəkdə ölkəmizin inkişafında mühüm rol oynamağa təşviq edir".

**"Gənclər Mərkəzi" İctimai Birliyinin sədri Kənan Qubadzadə:** "Ölkəmizdə gənclər siyasəti çox uğurla icra olunur. Cənab Prezident İlham Əliyevin hakimiyyətə gəlişindən sonra bu siyasət geniş vüsət alıb. Əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş Dövlət Gənclər siyasəti Azərbaycanda çox uğurla icra edilir. Çünki dövlət başçısının gənclərə və gənclər siyasətinə xüsusi diqqət və qayğısı var. Buna bir neçə nümunə göstərilə bilər. Gənclər və İdman Nazirliyinin, Gənclər Fondunun və digər qurumlarda Gəclər Təşkilatları üçün Qrant müsabiqələrinin elan olunması, Gənclər Fondunun Qrant müsabiqəsi çərçivəsində fərdi şəxslərə qrant verməsi dövlət



başçısının Gənclər siyasətinə göstərdiyi xüsusi diqqət və qayğının nəticəsidir. Ölkəmizdə bütün qurumlarda gənclərin işlə təmin olunması onların işsizlik probleminin aradan qaldırılmasına gətirib çıxarır. Hər il müxtəlif ölkələrdə təşkil olunan beynəlxalq forumlar, festivallar və proqramlarda azərbaycanlı gənclərin iştirakı üçün geniş imkanlar yaradılır. Bütün bunlar dövlətin gənclərə yönəlmiş siyasətinin səmərəli şəkildə həyata keçirildiyini göstərir və gənclərin inkişafı üçün yaradılmış şəraitin bariz nümunəsidir. Bu siyasət Azərbaycan gənclərinin potensialını tam şəkildə reallaşdırmağa, onların dövlətin tərəqqisində fəal iştirakına xidmət edir".

***Söylü Ağazadə***

---

# "Riyakar mövqe Emmanuel Makronu gülüş obyektinə çevirir"

## İsrailli sabiq nazir Fransa Prezidentini sərt tənqid edib

***Əgər Fransa Prezidenti Emmanuel Makronun Ukraynadan tutmuş İrana kimi, eləcə də digər məsələlərdə apardığı siyasət obyektiv qiymətləndirilərsə, Fransanın riyakar siyasətini və Makron hökumətinin gülüş obyektinə çevrilməsini görmək mümkündür.***

AZƏRTAC xəbər verir ki, bu barədə İsrailin sabiq rabitə, peyk və kibertəhlükəsizlik naziri, tanınmış siyasətçi və politoloq Ayub Kara ABŞ və beynəlxalq yəhudi diasporunun populyar nəşri "Jewish News Syndicate"də dərc olunmuş "Riyakar mövqe Emmanuel Makronu gülüş obyektinə çevirir" başlıqlı məqaləsində yazıb. Qeyd olunub ki, fransızlar üçün insan haqları öz imperiya maraqlarını genişləndirmək məqsədi daşıyan döyüş fəryadından başqa bir şey deyil. "Bloomberg"in son hesabatına görə, Fransa 2024-cü ildə Rusiyadan rekord miqdarda təbii qaz idxal edib. Bu o deməkdir ki, Makron Paris görüşündə Zelenski və Trampın yanında dayansa da, nəzəri cəhətdən Ukraynanı və Rusiyaya qarşı sanksiyaları dəstəkləsə də, əməldə bunlara riayət etmir. Axı Rusiya qazı Fransa bazarlarından bütün dünyaya satıla bilər və bu, Makronun Rusiya əleyhinə çıxışını kifayət qədər mənasız edir. Fransa bazarındakı reallıq Makronu gülüş obyektinə çevirir.

Həmçinin diqqətə çatdırılıb ki, Fransanın riyakar mövqeyinin başqa bir nümunəsi rəsmi Parisin Tehranla sıx əlaqələridir. Ermənistanın vasitəçiliyi ilə Fransa və İran arasında geniş əməkdaşlıq mövcuddur. Hətta Ermənistanın baş naziri Nikol Paşinyanla Makron arasında keçirilən görüşdə Fransa lideri erməni həmkarına İrana mesajların çatdırılması ilə bağlı müasir üstüörtülü təlimatlar verib. Sabiq nazir Avropa İttifaqının İrana qarşı daha çox sanksiyalar tətbiq etdiyi halda, Makronun Ermənistan vasitəsilə İranla gizli danışıqlar aparmasını riyakarlığın adlandırıb.

Məqalədə, eyni zamanda, bildirilib ki, Fransanın İrana və Ukraynaya qarşı yürütdüyü siyasət riyakarlığın yeganə nümunəsi deyil. Belə ki, 2020-ci ildə Azərbaycan və Ermənistan arasında




Qarabağ münaqişəsinin başlanğıcından Fransa özünün ATƏT-in Minsk qrupundakı bitərəf vasitəçi roluna zidd, qərəzli mövqe nümayiş etdirib. Minsk qrupu ilə əməkdaşlıq çərçivəsində Qarabağ münaqişəsinin həllinə mane olmaq üçün səylərini əsirgəməyib.

İsrailli siyasətçi yazısında Fransanın Korsika ilə yanaşı, öz sərhədlərindən minlərlə kilometr uzaqlığda yerləşən digər dənizaşırı ərazilərə qarşı da müstəmləkəçilik siyasəti apardığını vurğulayıb: "Fransızlar üçün insan haqları onların imperiya maraqlarına xidmət edən vasitədir. Beləliklə, Azərbaycanın Qarabağa haqqı yoxdur, amma fransızların başqa ölkələri müstəmləkə etmək, imperiya təsir dairəsini genişləndirmək hüququ var. Bu riyakar mövqe Makronu gülüş obyektinə çevirən daha bir misaldır".

# Yeni İl masamızı necə bəzəyək?







*Belə bir deyim var ki, Yeni ilə necə daxil olsan, bütün il belə keçəcək! Hər kəsin yeni ildən gözləntiləri fərqli olsa da, ortaq arzumuz sevdiklərimizlə birlikdə xoşbəxt, firavan və sağlam bir il keçirməkdir. Yeni ilə çöldə əylənmək yerinə sevdiklərinizlə birlikdə evdə başlamaq istəyirsinizsə, bu arzunun ilk addımı olaraq 2024-cü ilin ilk günü üçün sevgi dolu yeni il süfrəsi hazırlaya bilərsiniz. Bəs, bayram süfrəmizi necə hazırlayaq?*

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Yeni il süfrəsini necə hazırlamaq olar?

—Yemək qabına uyğun süfrə seçin.

-Yemək qablarını, qaşıqları, çəngəlləri və stəkanları masa qaydalarına uyğun qoyun.

-Masanızı aksesuarlarla bəzəyin.

-Sınaq və doğru reseptlərlə zəngin menyu yaradın.

-Süfrənizi evdə hazırlanmış içkilərlə rəngləyin.

-Nahardan sonra söhbət üçün desert hazırlayın.

-Qonaqlar üçün kiçik hədiyyələr hazırlayın və onları masaya qoyun.





## İlk addım: Milad süfrəsi

Süfrə seçimində ən vacib ipucu onun konsepsiyaya uyğun olmasıdır. Yeni il süfrəsi konseptinizi əvvəlcədən müəyyən etmisinizsə, süfrə hazırlamağın hər mərhələsində işinizin asan olacağını deyə bilərik.

Beləliklə, Yeni il süfrəsi hazırlamaq üçün konsepsiya müəyyən etmək lazımdırmı?

Əlbəttə yox. Heç bir konseptə davam etmədən zövqünüzü və üslubunuzu tam əks etdirən masa hazırlaya bilərsiniz. Bu vəziyyətdə, əvvəlcə masanızda hansı rənglərə diqqət yetirəcəyinizə qərar verməlisiniz. Bu rənglərə uyğun və ya ziddiyyət təşkil edən süfrə seçə bilərsiniz. Əgər nahar dəstiniz rənglidirsə, ağ və ya qara süfrə seçə bilərsiniz. Sadə nahar dəsti istifadə edəcəksinizsə, bu dəfə yaşıl, qızılı və ya qırmızı süfrə seçə bilərsiniz. Qara süfrə seçsəniz, boşqablarınız və qablarınız qara fonda daha diqqətçəkici görünə bilər. Bu qəşəng detal sayəsində iştahınızı aça və gecədə ləzzətli iz buraxa bilərsiniz.

## Zərifliyin açarı: Masa düzümü

Dəvət masasının ilk baxışdan gözəl görünməsinin ən təsirli elementi süfrə düzümüdür. Süfrədə yemək qablarının, qaşıq və çəngəllərin düzülüşü, stəkanın yerləşdirilməsi nə qədər ahəngdar olarsa, görünüş də bir o qədər qəşəng olar. Yeni il süfrələri müxtəlif yeməklərin və çoxlu qonaqların olduğu masalardır. Bu səbəblə daha dar formalı yemək dəstləri və süfrəyə boşqablar seçmək faydalı ola bilər. Boşqabları, qaşıqları, çəngəlləri və stəkanları qoyarkən, boşqabları bir-birinə çox yaxın qoymamağa diqqət yetirməlisiniz. Əks halda, qonaqlarınız özlərini rahat hiss edə bilməz.

Masanın sıx və nizamsız olduğunu düşünürsünüzsə, xidmət arabasından istifadə edə bilərsiniz. Su stəkanı yerinə bir stəkan istifadə etmək daha yaxşı olardı. Qəlyanaltıları və zeytun yağlı xörəkləri elə təşkil etməlisiniz ki, hər qonaq onlara asanlıqla çata bilsin.

Eləcə də duz, ədviyyat və souslar elə qoyulmalıdır ki, hər kəs onlara çata bilsin. Masada lazımsız heç nə olmadığından əmin olmalısınız. Yeni il süfrəsini dəyirmi masa üzərində hazırlayacaqsınızsa, masanın ortasına göz yormayan kiçik bir yastı gül buketi qoya bilərsiniz. Çiçəyin ətrafına qəlyanaltılar və salatlar yerləşdirə bilərsiniz. Beləliklə, masanın ətrafındakı hər kəs asanlıqla hər boşqaba çata bilər.

## Hərəkət əlavə edən toxunuşlar: Aksesuarlar

Yeni il süfrəsinin bəzədilməsinə gəlincə, yeni il dekorunu unutmaq olmaz. Düzgün seçilmiş dekor ilə süfrənizin zərifliyini tamamlaya bilərsiniz. Konsepsiyanıza uyğun gələn dekor süfrənizi adi yemək masasından parlaq dəvət atmosferinə çevirəcək. Yemək masanız böyükdürsə, onu şamlar, şamdanlar və ya qızılgül ləçəkləri ilə daha da zənginləşdirə bilərsiniz. Yeni il süfrəsinin bəzəyi aksesuarsız tamamlanmır. Bəri başdan deməliyik ki, Yeni il süfrəsi aksesuarlarının o qədər çox variantı var və seçim etməkdə çətinlik çəkə bilərsiniz. Bu məqamda təxəyyülünüzə güvənərək öz üslubunuza və süfrənizin ümumi konseptinə uyğun aksesuarlar seçməyi tövsiyə edirik.

Seçimlər arasında çox vaxt sərf etmək istəmirsinizsə, miniatür yolka, maral heykəlciyi və ya barama kimi Yeni il ərəfəsi dedikdə ağıla ilk gələn aksesuarlardan biri istifadə edə bilərsiniz. Masanızda ən çox istifadə etdiyiniz rəngdə stullarınızı lentlə bəzəyə bilərsiniz. Süfrənizin altına parıldayan və ya güzgülü doldurucu boşqablar qoyaraq da süfrənizi qəşəng edə bilərsiniz.

Hər dəvət masasında olduğu kimi Yeni il süfrəsinin də ən gözəl detalı salfetlərdir. Naxışsız salfetlərdən istifadə etmək istəyirsinizsə, süfrənizin rənginə uyğun rəng seçə bilərsiniz. Yeni il süfrəsi üçün yaşıl, qırmızı və qızılı rəngli salfetlər uyğun ola bilər. İstəyirsinizsə, Milad temalı salfetlər də ala bilərsiniz. Yeni il mövsümündə belə salfetləri əldə etmək daha asan olur. Yeni il süfrəsi bəzək təklifləri arasında bolluğu simvolizə edən bəzəkləri, məsələn, nar heykəlciyi seçsəniz, bolluq enerjisi ilə yeni ilə girməyi asanlaşdıra bilərsiniz.

Şübhəsiz ki, Yeni ilin ən gözəl ənənəsi hədiyyə verməkdir. Qonaqlarınız üçün hazırladığınız hədiyyələri stolun üstündəki boşqabların yanına qoya bilərsiniz. Bu ənənə qonaqlarınızın gecəyə xoşbəxt və pozitiv başlamasını təmin edir. Yeni il ərəfəsində nə hədiyyə etmək lazım olduğunu soruşanlara bir neçə məsləhət verək. Yeni il gecəsini xatırladan kitablar, qar kürələri, zinət əşyaları kimi hədiyyələrlə sevdiklərinizi sevindirə bilərsiniz.

**Ayşən Vəli**

ARAŞDIRMA

# Ermənilərin vandalizm aktlarına qarşı əməli addımlar atılsın!

***Birləşmiş Millətlər Təşkilatının Elm, Təhsil və Mədəniyyət üzrə ixtisaslaşmış qurumu olan UNESCO-nun missiyası dünya üzrə mədəni irsin qorunması və təbliği ilə yanaşı, mədəniyyətlər arasında qarşılıqlı anlaşmanı inkişaf etdirməkdir.***




Lakin təəssüflə qeyd etmək lazımdır ki, bu qurum Azərbaycanın erməni işğalından azad edilmiş ərazilərində törədilmiş mədəniyyət cinayətlərinə və vandalizm aktlarına münasibətdə susqunluq nümayiş etdirir. Azərbaycanın əraziləri 30 il ərzində Ermənistanın işğalı altında olub və həmin dövrdə ermənilər tərəfindən sistemli şəkildə tarixi, mədəni və dini irsimiz məhv edilib. Məscidlər təhqir olunub, qəbirlər dağıdılıb, muzeylər, tarixi abidələr və digər mədəniyyət ocaqları yerlə-yeksan edilib. Bu dağıntılar yalnız Azərbaycan xalqının deyil, bütövlükdə bəşəriyyətin mədəni irsinə vurulan zərbədir.






## UNESCO-dan tələb









2020-ci ildə Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdikdən sonra beynəlxalq ictimaiyyət, o cümlədən UNESCO regiondakı vəziyyəti öyrənmək və baş verənləri sənədləşdirmək məqsədilə missiyalar təşkil etməli idi. Bunun üçün Azərbaycan dəfələrlə UNESCO-ya müraciətlər edib, lakin bu müraciətlər indiyə qədər cavabsız qalıb. Bu da UNESCO-nun bu məsələdə tərəddüd etməsi təşkilatın obyektivliyini və bərabər yanaşma prinsipini şübhə altına alır.

Azərbaycanın qeyri-hökumət təşkilatları (QHT) UNESCO-nu Ermənistanın işğalçılıq siyasəti nəticəsində məhv edilmiş mədəni irsin vəziyyətini araşdırmaq üçün faktaraşdırıcı missiya göndərməyə çağıraraq, bu cinayətlərin beynəlxalq səviyyədə sənədləşdirilməsini və lazımi tədbirlərin görülməsini tələb ediblər. Vətəndaş cəmiyyəti təmsilçiləri UNESCO-nun Baş direktoru Odri Azuleyə açıq məktub ünvanlayıb. Məktubda deyilir: “Biz sizə Ermənistanın Azərbaycan xalqına məxsus mədəni və tarixi irsi məqsədli şəkildə məhv etməsindən dərin narahatlığımızı ifadə etmək və bununla bağlı əməli addımların atılmasına çağırış etmək məqsədilə müraciət edirik. Ermənistanın həyata keçirdiyi siyasət nəticəsində Qərbi Zəngəzur, Qafan, İrəvan, Göyçə, Nüvədi, Vedi və digər bölgələrdə Azərbaycan xalqının mədəni irsi məhv edilib, mənimsənilib. Məsələn, İrəvanda yerləşən Dəmirbulaq məscidi 1990-cı illərin əvvəllərində buldozerlə dağıdılıb, XVI əsrə aid Sərdar məscidi isə bir neçə mərhələdə məhv edilib. Qala məscidi, Şah Abbas məscidi, Təpəbaşı məscidi, Zal Xan məscidi, Sərtib Xan məscidi, Hacı Novruzəli bəy məscidi, Hacı Cəfər bəy məscidi, Rəcəb Paşa məscidi, Məhəmməd Sərtib Xan məscidi, Hacı İnam məscidi və Ermənistan ərazisində yerləşən 300-dən artıq digər dini və mədəni abidələri eyni aqibətlə üzləşib. Bundan əlavə, Ermənistan ərazisində Aşağı Şorca, Qullubulaq, Saral və Ağadada kimi 500-dən artıq Azərbaycan qəbiristanlığı təhqir edilərək dağıdılıb”. Azərbaycan QHT-ləri bunu qəbuledilməz sayıb. O da vurğulanıb Aşıq Ələsgərin məzarı da bu cür münasibətlə üzləşib. Qeyd olunub ki, bu genişmiqyaslı kampaniya yalnız fiziki dağıntılarla məhdudlaşmayaraq, Azərbaycan kəndlərinin tarixi adlarının da tamamilə dəyişdirilməsi və erməni adları ilə əvəzlənməsi ilə müşayiət edilib: “Ermənistan ərazisində qalan yeganə məscid - İrəvandakı Göy Məscid saxtalaşdırılaraq “fars məscidi” kimi təqdim edilir”.

Məktubda xüsusi qeyd edilir ki, İrəvanda yerləşən və Azərbaycanın tarixi şəhərinin yeganə qalıqları olan Təpəbaşı məhəlləsi tamamilə məhv olmaq təhlükəsi ilə üz-üzədir. Bununla bağlı dəfələrlə məsələ qaldırılsa da, UNESCO praktiki addımlar atmayıb: “UNESCO-nun məsələyə təcili müdaxiləsi zəruridir. Təşkilatın üzv dövlətlərindən biri tərəfindən mədəni mülkiyyətin məqsədyönlü şəkildə məhvinə və Azərbaycanın mədəni irsinin, tarixi köklərinin inkar edilməsinə qarşı UNESCO prinsipial və ardıcıl mövqe nümayiş etdirməlidir. Biz - Azərbaycanın QHT nümayəndələri UNESCO-dan Ermənistan ərazisinə faktaraşdırıcı missiya göndərməsini, Azərbaycan xalqına məxsus mədəni irsin vəziyyətini monitorinq etməsini və sənədləşdirməsini, Ermənistandan UNESCO sənədləri də daxil olmaqla, beynəlxalq konvensiyalar çərçivəsində mədəni irsin qorunması üzrə öhdəliklərinə əməl etməsinin tələb olunmasını bir daha xahiş edirik”.

QHT-lərin UNESCO-ya ünvanladığı bu müraciət Ermənistanın həyata keçirdiyi vandalizmə diqqəti cəlb etmək üçün önəmli vasitədir. Belə müraciətlərin davamlı şəkildə təqdim olunması beynəlxalq arenada Azərbaycanın haqq işini tanıtmaq və mədəni irsin qorunmasını təmin etmək üçün effektiv strategiyadır. UNESCO-nun indiyə qədər açıq məktuba cavab verməməsi isə həmin təşkilatın bu məsələyə münasibətini şübhə altına alır. UNESCO-nun qlobal mədəniyyətin qorunması ilə bağlı prinsiplərinə uyğun olaraq bu çağırışa reaksiya verməsi, faktaraşdırıcı missiya təşkil etməsi və problemin həlli istiqamətində əməli addımlar atması zəruridir.

**_Nigar Orucova_**





# Qış gəlir, həm də Çilləsi ilə...






***Dekabrın 20, 21-dir bu gecə. Payızın üzərində hökmranlığa keçən qışın gəlişi ilə özünü göstərməsidir. Və təbiətin özü üçün qurduğu planlardan biridir. Bu plana əsasən 21 martda gün-gündüz bərabərliyi yaranır. Gecə ilə gündüz bərabərləşir, şimal yarımkürəsində yaz, cənub yarımkürəsində isə payız başlayır. 21 iyun yay gündönümü baş verir. Bu, ilin ən uzun gündüzünün və ən qısa gecəsinin baş verdiyi vaxtdır. Başqa bir adı Yaz gündönümüdür. Şimal yarımkürəsində yay başlasa da, cənub yarımkürəsində qış başlayır.***

23 sentyabr gündüz bərabərliyi yaranır. Gecə ilə gündüz bərabərləşir. Şimal yarımkürəsində yay bitir, payız başlayır. Cənub yarımkürəsində yaza keçid olur.

21 dekabrda isə qış gündönümü deyilən an şimal yarımkürəsində günlər uzanmağa, cənub yarımkürəsində isə qısalmağa başlayır. Bəzi ölkələrdə bu tarix şimal yarımkürəsində qışın, cənub yarımkürəsində yazın başlanğıcı hesab olunur. Ancaq bəzi ölkələrdə yay və ya qışın ortası hesab olunur. Ən uzun gün cənub yarımkürəsində, ən uzun gecə isə şimal yarımkürəsində yaşanır.

Beləliklə, 21 dekabr gecəsi ömrümüzə qış fəslini gətirməklə, həm də gecə-gündüz bərabərliyini yaradıb, daha sonra günlərin uzanması, gecələrin qısalması ilə davam edir. Xalqımız qış fəslini xalq təqviminə uyğun olaraq, "çillə" adı ilə üç yerə bölüb. Bunlardan böyük çillə 40 gün (21 dekabr - 30 yanvar), kiçik çillə 20 gün (31 yanvar - 20 fevral), ala çillə və ya ala çolpav (boz ay da deyilir) isə bir ay (20 fevral - 20 mart) davam edir.



Qışın daxil olduğu gün ölkəmizdə, hətta Cənubi Azərbaycan, İran, Əfqanıstan və bir çox yerlərdə hər il dekabrın 20, ya da 21-də Çillə mərasimləri ilə qeyd olunur. Bu mərasimdə hökmən qarpız kəsilməlidir. Buna Çillə qarpızı deyirlər. Etnoqrafların söylədiyinə görə, Çillə qarpızına bolluq, bərəkət rəmzi kimi baxılır. Çillə gecəsində qarpız kəsmək qışı xoş qarşılamaqla bərabər, ondan qorxmamağa işarədir.

Çillədə qarpız kəsəndə deyərlər ki, "ay qarpız, mən səni necə kəsirəmsə, çilləni də belə tez kəsim". Yəni qışa, şaxtaya yenilməyim, onu dərdsiz, bəlasız başa vurum. Naxçıvanda yaşlı insanların dediklərinə görə, çillədə qarpız kəsilir ki, günümüz qırmızı, yeni günəşli olsun.

Çillə qarpızı kəsilən vaxt xalq arasında niyyətetmə adəti də icra olunur. Bu zaman qarpızın baş tərəfini kəsərək dörd yerə ayırıb atırlar. Əgər hissələrdən ikisi eyni tərəfi üstə düşərsə, niyyət qəbul edilmiş sayılır. Bu da belə bir fikir söyləməyə əsas verir ki, çillə gecəsi qarpızın qabığının bir hissəsinin dörd yerə bölünüb niyyət tutub atılması, bəlkə də, dörd fəsillə, atılan qarpız qabıqlarının rənglərinə uyğun (ağ və yaşıl) niyyətin qəbul olması isə fəsillərin əlamətləri ilə əlaqədardır.

Çillədə qarpız olmadıqda belə, başqa bir meyvə kəsilməlidir. Xalq arasındakı inanca görə, kim bu gecə çoxlu meyvə yesə, o, bütün qışı xəstələnməz. Xalq təqvimindən irəli gələn Çillə bayramında həm də nişanlı, yeni ailə quran qızlara xonçalar aparılar və həmin xonçada hökmən qarpız olar.

Beləliklə, Çillə bayramımız mübarək olsun. Qoy qarşıdan gələn qış qarı, soyuğu ilə yanaşı, həm də qarpızın içi rəngdə günəş də doğursun ki, soyuğu onun istisi ilə azacıq da olsa, dəf edə bilək. Çünki qış gəldi-gedərdir, Günəş isə daimi, həm də bütün fəsillərin gözəlliyidir..

***Mətanət Məmmədova***





# “2025-ci ildə daha aktiv danışıqlar dövrü olacaq"



***“Azərbaycan və Ermənistan arasındakı sülh danışıqlarında ziddiyyətli məqamlar var. Daha doğrusu, həll edilməsi çətin görünən məqamlardır". Bu sözləri SİA-ya açıqlamasında politoloq Asif Nərimanlı deyib.O bildirib ki, artıq Azərbaycan Prezidenti də dedi ki, sülh sazişi layihəsində ilkin variantda 17 maddə var: "Onun 15-i razılaşdırılıb, ikisi qalıb. Prezident də iki maddənin nədən ibarət olduğunu açıqladı.***

Ermənistan konstitusiyasında dəyişiklik edilməsi məsələsi, Atət-in Minsk qrupunun buraxılması məsələsi var. Bunlar hazırda müzakirə edilən məsələlərdir. Amma bununla yanaşı iki ayrıca ən ziddiyyətli məsələ də var. Ermənistan ”Alma-Ata prinsipini” irəli sürür. ”Alma-Ata bəyannaməsi” əsas götürülərək delimitasiya məsələsini dəstəkləyir. Ermənistanın hazırkı ərazisini qorumaq məqsədi daşıyır. Çünki SSRİ dövründə ermənilərə bağışlanan Azərbaycan torpaqları var. Ermənistan çalışır ki, Azərbaycan həmin torpaqlar üzərində ermənilərin legitimliyini tanısın. Bu, Azərbaycanın prinsiplərinə uyğun deyil.Ziddiyyətli məqamlara baxdıqda sülh ilə bağlı nə qədər ümidlər, çağırışlar olsa da, bunun praktiki olaraq imzalanması 2025-ci ildə çətin görünür. Bəllidir ki, 2025-ci ildə daha aktiv danışıqlar dövrü olacaq. Hesab edirəm ki, indiyə qədər Bayden administrasiyası ilə Rusiya arasındakı qarşıdurma Azərbaycan-Ermənistan danışıqlarına təsir edirdi. Bir çox halda prosesin tormozlanmasına, danışıqların aparılmasına mane olurdu. Çünki hər iki tərəfin bölgədə öz maraqları var. Hər iki tərəf öz maraqlarını Bakı-İrəvan üzərindən həyata keçirməyə çalışır. Əgər Tramp gəldikdən sonra Rusiya ilə müəyyən anlaşmalar olarsa, Cənubi Qafqazda daha az gərgin dövr ola bilər. Bu isə Bakı-İrəvan arasındakı danışıqları daha effektiv edə bilər. Lakin yenə də yekun sülh sazişinin imzalanması gözləntisində ziddiyyətli məqamlar var”.”Ermənistan konstitusiyasının dəyişdirilməsi 2026-cı ilin dekabrına qədər nəzərdə tutulub. Qəbul məsələsi 2027-ci ildə olmalıdır. Bu isə o deməkdir ki, qarşıdakı dövrdə sülhlə bağlı hər hansı imzalanma olması çətindir. Sülh sazişinə dair çərçivə sazişi, ilkin sənəd kimi imzalanma ehtimalı ola bilər. Tərəflər hazırda niyyət protokolu imzalayırlar. Məqsəd budur ki, hər iki tərəf sülh danışıqlarının imzalanmasını istəyir. Tərəflər ziddiyyətli müzakirələri davam etdirə bilərlər. Ermənistan nə qədər sülhdən danışsa da, həm də silahlanır. Bölgədə maraqlı olan Qərb Ermənistan üzərindən niyyətini həyata keçirməyə çalışır. Bu da sülhdən çox hərbi riski artırır. Sülhlə bağlı daha böyük gözləntilər ortaya çıxıb. Bu, daha çox Ermənistana dəstək olan qüvvələrin bölgədə ata biləcəyi addımlardan da asılıdır” - deyə o, əlavə edib.

***Söylü Ağazadə***



# “Jurnalistin dövrün tələblərinə uyğun olaraq daim təkmilləşməsi mütləqdir”

“Azad medianın inkişafı dövlət siyasətinin əsas tərkib hissəsi kimi diqqətdədir. Dövlət başçısı İlham Əliyev daim bu çağırışı edir ki, müasir dünyada azad medianın səviyyəsi hər bir ölkənin səviyyəsini göstərir. Azərbaycanın müstəqillik tarixinin 1993-cü ildən bu günə qədərki dövrünün təhlili belə bir reallığı təsdiqləyir ki, dövrün tələblərinə uyğun olaraq həyata keçirilən islahatlar prosesi mediada da geniş şəkildə özünün aydın ifadəsini tapır”. Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvü Vüqar Rəhimzadə deyib.

O bildirib ki, bütün dövrlər üçün aktuallığını qoruyan əsas hədəflərdən biri jurnalist peşəkarlığının və məsuliyyətinin artırılmasıdır: ”Nəzərə alsaq ki, ictimai fikrin formalaşmasında yazılı və elektron KİV-lərin üzərinə böyük məsuliyyət düşür, bu halda onların ictimaiyyətin informasiya tələbatını hansı səviyyədə, daha dəqiq desək, informasiyaların dəqiqliyinin yoxlanılması şəraitində ödəmələri daha böyük önəm daşıyır. Digər tərəfdən, bu mühüm məqamı da xüsusi qeyd etməliyik ki, Azərbaycan internetin azad olduğu ölkələr sırasındadır. Ölkə əhalisinin 85 faizindən çoxu internet istifadəçisidir. Bu mühüm statistik rəqəm də jurnalist peşəkarlığının və məsuliyyətinin aktuallığını təsdiqləyir. Azərbaycan dövlətinin mətbuatın inkişafına yönələn addımları davamlılığı ilə diqqətdədir. Əgər mətbuat da öz növbəsində, üzərinə düşən missiyanı sözün həqiqi mənasında söykəndiyi prinsiplər əsasında yerinə yetirərsə, bu halda həmin mətbu orqana cəmiyyətdə inam da böyük olar, KİV-lər əhalinin informasiya tələbatını daha dolğun şəkildə ödəyər.

Ölkəmizdə “Media savadlılığı” Həftəsinin keçirilməsi də jurnalist peşəkarlığının artırılması baxımından xüsusi əhəmiyyət kəsb edir. Media savadlılığı özündə mühüm çağırışları ehtiva edir. Təbii ki, bu tələb jurnalistin əldə etdiyi informasiyanın dəqiqliyini araşdırmadan cəmiyyətə təqdim etməsinin mümkünsüzlüyünü ortaya qoyur. Dezinformasiyanın hansı problemlərə yol açdığını unutmamalıyıq. Dövlətimizin başçısı İlham Əliyevin hələ 2016-cı ildə Heydər Əliyev Fondunun və AZƏRTAC-ın birgə təşkilatçılığı ilə Bakıda Dünya Xəbər Agentliklərinin V Konqresinin, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) XVI Baş Assambleyasının birgə açılış mərasimindəki çıxışında dezinformasiyaların yaratdığı problemlərdən bəhs edərək bu məqamı vurğulamışdır ki, bəzən mediada gördüklərimiz və oxuduqlarımız reallıqdan fərqlənir: “Bunu şəxsi təcrübəmdən deyə bilərəm. Əlbəttə, istənilən dövlətin Prezidenti kifayət qədər dəqiq məlumat mənbələrinə malikdir. Ancaq beynəlxalq media vasitəsilə izlədiyimiz bu və ya digər eyni hadisə onun kim tərəfindən təqdim edilməsindən asılı olaraq, bəzən fərqli şəkildə çatdırılır. Yəni, burada siyasi motivlər və müəyyən mənada müxtəlif siyasi dairələrin müdaxiləsinin şahidi oluruq. Hadisələrin gedişi müəyyən çərçivəyə salınır, təqdim edilməli olan məsələlər müəyyənləşdirilir, digər mövzular isə qadağan edilir.” Prezident İlham Əliyev sözügedən tədbirdə medianın rolu ilə yanaşı, məsuliyyətinin də artdığını diqqətə çatdırmışdır. Azərbaycanın belə tədbirlərə ev sahibliyini müstəqil medianın inkişafı sahəsində Azərbaycanın fəaliyyətinin və nailiyyətlərinin yüksək qiymətləndirilməsinin göstəricisi kimi dəyərləndirən dövlətimizin başçısı bildirmişdir ki, hamımız azad medianın tərəfdarıyıq. Hamımızın, xüsusilə də 70 il Sovet İttifaqının tərkibində yaşamış Azərbaycan kimi dövlətlərin doğru məlumata ehtiyacı var. O dönəmdə yalnız vahid rəsmi siyasət və vahid ideologiya mövcud idi və bizim heç bir məlumata çıxışımız yox idi. Təkcə bizim deyil, bütün ölkələrin və xalqların həqiqətən nələrin baş verdiyi ilə bağlı məlumat əldə etmək hüququ var.

Prezident İlham Əliyev bütün çıxışlarında ölkəmizdə azad mətbuatın inkişafından bəhs edərkən daim informasiyanın dəqiqliyinin vacibliyini xüsusi vurğulayır. Səsləndirilən hər bir çağırış mətbuatın qarşısında mühüm vəzifələr qoymaqla yanaşı, qarşıdakı dövrdə hədəflərə yüksək səviyyədə nail olmaq üçün yol xəritəsidir.

Medianın İnkişafı Agentliyinin yaradılması da dövlətimizin müasir çağırışları özündə əks etdirən islahatlar prosesinin tərkib hissəsidir. Belə ki, dövlətimizin başçısı İlham Əliyevin tarixi Zəfərimizin reallıqları əsasında imzaladığı “Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında” Fərmanında da qeyd edildiyi kimi, qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinə uyğun olaraq modernləşmə, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənilməsi və digər mühüm şərtləri özündə birləşdirən innovativ təkamülün yaratdığı imkanlardan

MÜNASİBƏT



Azərbaycan mediasının daha çox bəhrələnməsi, onun şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanan, cəmiyyətin obyektiv və peşəkar şəkildə məlumatlandırılmasına xidmət edən fəaliyyətinin stimullaşdırılması üçün bu sahədə əsaslı islahatlar aparılmasına zərurət yaranır. O da bildirilir ki, ötən dövr ərzində Azərbaycan mediası özünəməxsus inkişaf yolu keçmiş, ölkəmizdə və dünyada baş verən hadisələrlə bağlı cəmiyyətin məlumatlandırılması, xalqımızın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində məqsədyönlü fəaliyyət göstərmişdir. Bununla yanaşı, Azərbaycanda həyatın hər bir sahəsini əhatə edən köklü islahatların həyata keçirildiyi, habelə bütün dünyanı əhatə edən vahid informasiya məkanında yeniliklərin intensiv xarakter aldığı, kommunikasiya vasitələrinin sürətlə inkişaf etdiyi, mütərəqqi texnologiyaların, iş metodlarının tətbiq olunduğu müasir dövrdə media sahəsində keyfiyyət dəyişikliklərinə ehtiyac var. Həmin sənədə uyğun olaraq Medianın İnkişafı Agentliyinin yaradılması və son üç ildə həyata keçirdiyi layihələr, atdığı addımlar azad medianın inkişafına, jurnalist peşəkarlığının artırılmasına böyük töhfələrdir. Keçirilən “Media savadlılığı” mövzusunda konfrans da bunun bariz nümunəsidir”.

Onun sözlərinə görə, media savadlılığının artırılması davamlı prosesdir: ”Jurnalistin dövrün tələblərinə uyğun olaraq daim təkmilləşməsi mütləqdir. Təbii ki, bu kimi təkmilləşmələr, peşəkarlığın artırılması mediada yayılan məlumatın dəqiqliyini, yaxud reallığı əks etdirmədiyini müəyyənləşdirməyə yardımçı ola bilər. Dövlətimizin başçısı İlham Əliyev bu ilin iyulunda yalan məlumatların ifşası və dezinformasiyaya qarşı mübarizə mövzusunda keçirilən 2-ci Şuşa Qlobal Media Forumunda “Sizcə, biz nə dərəcədə çətin vəziyyətdəyik, böhran nə dərəcədə ağırdır” sualını cavablandırarkən bildirdi ki, təəssüflər olsun bu gün dünyada baş verənlər məhz bu mövzunun bir növ qurbanına çevrilib. Bu, bizim artıq həyat tərzimizin bir hissəsinə çevrilib. Bəzən təəccüblənirik ki, Azərbaycan haqqında beynəlxalq mediada yayılan məlumatlar həqiqətə uyğun olmur. Mən xatırlayıram ki, müxtəlif xarici qonaqlarla görüşlərimdə, səmimi söhbətlərdə, mütləq hallarda mənə ötürülən mesaj olur ki, biz Azərbaycanın bu dərəcədə inkişaf etmiş ölkə olduğunu gözləmirdik və ona görə də bu narrativlər çox zərərvericidir. Bu, təkcə ölkənin nüfuzunu ləkələmir. Bu, ölkənin biznes potensialını, sərmayə imkanlarını azaldır. Bu, beynəlxalq ictimaiyyətin əsas məsələlərdən diqqətini yayındırır və tamamilə qeyri-realist ssenarilər üzərinə yönəldir.

Demokratik inkişafın mühüm göstəricilərindən biri kimi çoxsaylı mətbu orqanların fəaliyyəti, eyni zamanda, yayılan informasiyaların bolluğu fonunda məlumatların dəqiqliyinin müəyyənləşdirilməsi təbii ki, bacarıq tələb edir. Bu da öz növbəsində media savadlılığının artırılmasını aktuallaşdırır. 2022-ci ildə qəbul olunan yeni “Media haqqında” Qanunda da bu, əsas tələb kimi irəli sürülür”.

***Söylü Ağazadə***

# Avropanın media casuslarının ifşa edilməsindən Əli Kərimli niyə narahat olub?







***Mövcud fakt ondan ibarətdir ki, bu gün geniş və əhatəli inkişaf dövrünə qədəm qoyan Azərbaycan mətbuatı çətin və ağır dövr keçməli olub. Lakin bütün hallarda çətinlikləri, təpki və təzyiqləri qətiyyətlə aradan qaldırmağı bacaran Azərbaycan medası dünyanın ən inkişaf edən mediasına çevirlib. Azərbaycan dövlətinin dəstəyi KİV-lərin müasir dövrün tələblərinə uyğun olaraq işini qurmasına və fəaliyyət göstərməsinə imkanlar yaradıb. Ulu Öndərimiz Heydər Əliyevin xeyirli, gərəkli media siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev KİV-lərin fəaliyyətinin genişlənməsinə və peşəkarlıq səviyyəsinin yüksəlməsinə hər cür dəstəyini göstərir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Media sahəsində islahatların dərinləşdirilməsi haqqında” Fərmanı və MEDİA Agentliyinin yaradılması ölkəmizdə media sahəsində islahatların daha sürətlə aparılmasına və şaxələndirilməsinə yeni imkanlara yaradır.***

Təəssüflər olsun ki, dövlətin yaratdığı şərait və imkandan sui-istifadə hallarına yol verilir. Yazdığı təhqiredici yazıya, işlətdiyi böhtanlara görə, məsuliyyətə cəlb edilməsində humanistliyə yol veriləcəyini anlayan bəzi jurnalistlər bu istiqamətdə sərhəd tanımırlar. Vaxtaşırı təhqirlərlə dolu yazılar yazır, internet TV-lərdə şər və böhtan xarakterli fikirlər yayırlar. Dəhşətlisi ondan ibarətdir ki, onları bəzən siyasi partiya funkisionerləri istiqamətləndirirlər. Dəfələrlə sübuta yetirilib ki, AXCP sədri Əli Kərimlinin, Milli Şuranın rəhbəri Cəmil Həsənlinin və digərlərinin sifarişləri əsasında bəzi jurnalistlər, media orqanları, internet TV-lər dövlətin müsbət imicini ləkələmək üçün qarayaxma kampaniyası təşkil edirlər. Xarici məkrli qüvvələrin maddi və mənəvi dəstəyinə arxalanan “Abzas Media”, “Toplum” TB, “Meydan”TV kimi qurumlar Azərbaycanda görülən möhtəşəm işlərə kölgə salmaq, insanlar arasında çaşqınlıq yaratmaq üçün hər cür çirkin vasitə və üsullardan istifadə edirlər. Təbii ki, qarşılığında xarici fondlardan milyon dollarla maliyyə vəsaitləri alırlar. Təbii qanundankənar maliyyə vəsaiti almaq cinayət məsuliyyəti yaradır.

### Medai casusu iş başında yaxalanırsa...

Haqlı olaraq da belə yol tutanlara qarşı hüquqi tədbirlər görülməlidir və görülür də. “Abzas Media” xəbər portalının rəhbəri Ulvi Həsənov, bas redaktor Sevinc Abbasova və layihə koordinatoru Məhəmməd Kekalov qarşı Cinayət Məcəlləsinin 206.3.2-ci (qacaqmalcılıq, qabaqcadan əlbir olan bir qrup səxs tərəfindən törədildikdə) maddəsi ilə baslanılmıs cinayət isi uzrə barələrində həbs qətimkan tədbiri secilib. Bu günlər isə “Meydan” TV-nin əməkdaşları Aynur Qənbərova (Elgünəş), Ramin Cəbrayılzadə (Deko), Natiq Cavadlı, Xəyalə Ağayeva, Ülvi Tahirov, Aysel Umudova və Aytac Əhmədova (Tapdıq) cinayət məsuliyyətinə cəlb edilib. Onların hər birinə qarşı




Cinayət Məcəlləsinin 206.3.2-ci (qaçaqmalçılıq - qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) maddəsi ilə ittiham irəli sürülüb. Məhkəmənin qərarı ilə Aysel Umudova, Aytac Əhmədova, Aynur Elgünəş, Natiq Cavadlı, Ülvi Tahirov, Ramin Deko və Xəyalə Ağayeva barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilib. Diqqətçəkən məqam ondan ibarətdir ki, Azərbaycanda fəaliyyət göstərən ABŞ-ın və Avropanın qaranlıq dairələrinin media casuslarının həbs edilməsindən sonra Əli Kərimli, Cəmil Həsənli narahat olmağa başlayıblar. Hər gün mənasız açıqlamlar verir, sosial şəbəkələrdə paylaşımlar etməklə öz ağıllarınca Meydan TV, “Abzas Media” və “Toplum” TV-nin həbs edilən əməkdaşlarına dəstək verdiklərini nümayiş etdirlər. Əslində isə, özlərinin onlarla işbirliyində olduqlarını göstərmiş olurlar.

Yəni aldıqları maliyyə vəsaitindən onlara pay düşüb və həmin payın qarşılığında nəsə etməyə çalışırlar. Nədən bəzi xarici fonlar, təşkilatlar kislərinin ağzını açıb, Azərbaycan daxilində pozucu yol tutmağa, təxribatlar törətməyə çalışanlara maliyyə vəsaitləri ayırırlar? ABS-ın “Beynəlxalq Inkisaf Agentliyi” (USAID), “Milli Demokratiya Fondu” (NED), “Avropa Demokratiyaya Yardım Fondu” (EED), “Internews”, “FreedomNow”, “Qlobal Arasdırmacı Jurnalistika Səbəkəsi” (Global Investigative Journalism Network), “Amerika Beynəlxalq Təhsil Surası” (American Councils for International Education), Cexiyanın “Praqa Vətəndas Cəmiyyəti Mərkəzi” (PCSC), “People in Need” (PIN), “Avropa Ittifaqı Mustəqil Media ucun” proqramı (EU4 Independent Media), “Sərq Tərəfdaslıgı Vətəndas Cəmiyyəti Forumu” (EPCSF), “Niderland Helsinki Komitəsi”, “Norvec Helsinki Komitəsi”, “Avropa Jurnalistika Fondu” (Journalizmfund Europe), “Yeni Demokratiya Fondu” (New Democracy Fund), “Forum 2000”, “German Marsal” Fondu və digərləri “Abzas Media” xəbər portalının rəhbərliyinə “demokratik inkisafa dəstək vermək” adı altında böyük məbləğdə pullar ödəyiblər. Görün, Qafqazın bir ölkəsində ”demokratiya carçısı” rolunda çıxış etmək üçün nə qədər qurum



növbəyə dayanıb və bundan da Ülvi Həsənov və komandası maksimum dərəcədə istifadə etməyə cəhd göstəriblər.

### Alınan maliyyə vəsaitləri şəxsi ehtiyaclara və təxribatların yayılmasına xərclənib

İstintaq materialları ilə sübuta yetirilib ki, “Abzas Media” xəbər portalının rəhbərliyi “Signal” və “Protonmail” platformalarında hesablar yaradaraq, beynəlxalq təskilatların kod adları “Aleks” və “Daisy” olan numayəndələri ilə qrant layihələri və pul vəsaitləri əldə etmək movzusunda coxsaylı yazısmalar aparıb, xarici səfərlərində isə onlarla görüşüblər. Bu məqamda, həmin ”demokratiya göyərçinlərini” oxuculara daha yaxından tanıtmaq yerinə düşər. Deməli, “Aleks” kod adlı şəxs alyonatatlin@protonmail.com mail ünvanı ilə qeydiyyatdan keçmiş Aleksandra Kirbidir. O Londonda “Birmingem” və “Jagiellonian” universitetlərində təhsil alıb, 2015-ci ildən “Avropa Demokratiyaya Yardım Fondu”nun bas proqram meneceridir. Məqalə yazılan dəqiqələrdə şəxsiyyəti dəqiqləşdirilən “Daisy” isə daisy@signalmail.org mail ünvanı ilə yuxarıda qeyd olunan platformada qeydiyyatdan keçib. O, Ukraynada anadan olub, Polsada “Natolin” Avropa Kollecində təhsil alıb, hazırda isə Brussel səhərində yasayır, “Avropa Demokratiyaya Yardım Fondu”nda işləyir. Görünən odur ki, səfərlər və görüşlər bizim ”qəhrəmanlar” üçün kifayət qədər uğurlu olub. Belə səfərlər zamanı dovlət qeydiyyatına alınmadan baglanılmıs qrant muqavilələri cərcivəsində avro və ABS dolları valyutalarında ayrılan qanunsuz pul vəsaitləri Gurcustanda fəaliyyət gostərən “TBC Bank” və “Bank of Georgia” banklarında Ulvi Həsənovun və Məhəmməd Kekalovun adlarına acılmıs bank hesablarına kocurulüb. Müxtəlif görüşlərdə maliyyə fırıldaqçılıqlarının sirlərinə yiyələnən Ülvi və Məhəmməd həmin vəsaitləri həm özləri, həm də yaxınları vasitəsilə xarici olkələrdəki bankomatlardan məsuliyyət yaratmayan məbləglərdə hissə-hissə nagdlasdırıb olkəyə gətiriblər. Bəzi layihələr uzrə vəsaitlər isə Londonda adsız bank kartlarına yuklənərək dəstə uzvlərinə təqdim olunub. Bu metodla pullar cinayətkar dəstə, onların ailə uzvləri və digər yaxın qohumları vasitəsilə bir sıra bankların hərəkət intensivliyi az olan kucələrdəki bankomatlarından kicik məbləglərlə nagd səkildə cıxarılıb.

Bəs özünü azad, müstəqil adlandıran ”Abzas Media”çılar min cür yolla nağdlaşdırdıqları vəsaiti hansı xidmətlərinə görə alıblar? Bu suala cavab vermək üçün ”azad söz xiridarlarının” 2020-2023-cu illərə aid askarlanmıs sənədlərdə Ulvi Həsənov və yaxın ətrafına daxil olan səxslər tərəfindən hansı layihəni həyata keçirdikləri və bunun müqabilində nə aldıqlarını görmək kifayətdir. Başlayaq yenə də USAİDdən. Bütün Qərb sifarişlərini yerinə yetirənlərin hamisi rolunda çıxış edən USAİD-ə bağlı olan “DT Global” təşkilatından Ülvi və Ko 98 600 avro və 30 000 ABS dolları alıb.

Araşdırmalar və əldə olunan məlumatlar onu bir daha təsdiq edir ki, ABŞ və Qərbin qaranlıq dairələri Azərbaycanda geniş agentura şəbəkəsi qurublar. Söz yox ki, agentura şəbəkəsində yalnız jurnalistlər, özlərini bloger kimi təqdim edənlər yer tutmurlar, onların arasında QHT-nümayəndələri, siyasi partiya rəhbərləri mövcuddur. Ə.Kərimlinin, C.Həsənlinin, T.Yaqublunun və digərlərinin hay-küy qaldırmaları torbada pişiyin olmasından xəbər verir. Digər tərəfdən C.Həsənli özü açıq şəkildə etiraf etmişdir ki, o, hər ay “Soros” fondundan 200 ABŞ dolları alıb. Əminəm ki, hüquq-mühafizə orqanları etirafedici açıqlamalarla çıxış edənləri sorğu-sual edəcəklər, bu halda şübhəsiz ki, çoxsaylı faktlar üzə çıxar. Daha doğrusu, istintaqçılar Əli Kərimlini, Cəmil Həsənlini və digər dağıdıcı müxalif ünsürləri iş üzrə istintaqa cəlb edib, onları dindirsələr ciddi və əhəmiyyətli məlumatlar üzə çıxarmış olarlar.

***İLHAM ƏLİYEV***

# Dmitri Kiselyov: “İlham Əliyev yeni dünya nizamının formalaşmasında fəal iştirak edən güclü geosiyasi oyunçudur”



***“Russia Today” beynəlxalq media qrupunun baş direktoru, Rusiya Dövlət Tele-Radio Şirkətinin aparıcısı Dmitri Kiselyov “Moskva-Baku” portalına müsahibəsində Azərbaycan Prezidentinin ona müsahibəsində səsləndirdiyi fikirləri şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.***

**-Dmitri Konstantinoviç, bugünkü geosiyasi vəziyyət fonunda Azərbaycan Prezidentinin sizə müsahibəsində səsləndirdiyi tezisləri necə görürsünüz və bu kimə mesajdır?**

- Təbii ki, bunlar əhəmiyyətli bəyanatlardır. İlham Heydəroviç indi şahidi olduğumuz dünya xaosunun fonunda mütləq qala kimi görünür. O, sabitliyə və ənənəvi dəyərlərə sadiq qalan güclü geosiyasi oyunçudur. İlham Əliyev əvvəllər ona verilməyən sualları cavablandırıb. Kadrda onun cavablar haqqında necə düşündüyünü görürdünüz, o, nəinki klişelərlə cavab vermədi, həm də prinsipcə sualları bir növ kənara atmaq və ya cavab verməkdən yayınmaq istəmirdi; Azərbaycan Prezidenti qaldırılan mövzulara aydın və dolğun cavab verdi. Deyim ki, dövlət rəhbərlərinin müxtəlif cavab üslubları var. Mənim onlarla ünsiyyətdə təcrübəm var idi və məsələn, Qorbaçov belə cavab verməyi xoşlayırdı: siz ondan nəsə soruşursunuz, o da deyir: “Yaxşı, mən indi sizə bunu deyərəm...” Və sonra o, başqa mövzuda danışmağa başlayırdı. İlham Heydəroviç isə cavab verməkdən çəkinməyənlərdəndir. O, həmsöhbətini dinləyir, deyilən hər sözü dinləyir və dəqiq cavab verir, özünəməxsus yumor hissi və eyni zamanda, verdiyi cavablar dərin düşüncələrin və geniş siyasi təcrübənin, ölkəsinə sonsuz məhəbbətin bəhrəsidir.

**-İlham Heydəroviçlə bir neçə dəfə görüşmüsünüz, bu dəfə sizi təəccübləndirən və ya sizin üçün yeni mənada açılan nəsə oldumu?**

-Bilirsiniz, yəqin ki, mən hər dəfə görürəm ki, İlham Heydəroviç təkamül keçir: həm insani, həm də siyasi, lider kimi. Onun rəhbərliyi ilə ölkə sürətlə inkişaf edir. Liderin özünü inkişaf etdirməsi çox gözəldir. Eyni qabiliyyət avroromantizmdən realizmə tamamilə ayıq qavranılmasına qədər təkamül keçirmiş Vladimir Putində də var. İzah edim: Putin 2001-ci ildə Almaniyaya getdi və orada dostluq təklifi ilə Bundestaqda almanca danışdı, dedi ki, Avropaya inteqrasiya bizim də inteqrasiyamızdır, biz onun iştirakçılarıyıq. Almanlar onu alqışladılar və sonda bu təklifə passiv reaksiya verdilər. Sonra Rusiya prezidenti 2007-ci ildə Münhen Təhlükəsizlik Konfransında əlamətdar çıxış etdi. Amma əhəmiyyət vermədilər. Və nəticədə münasibətlər indi gördüyümüz vəziyyətə gəldi- Rusiya ilə Qərb arasında birbaşa hərbi qarşıdurmaya.

İlham Heydəroviç də təkamül keçir. Bir tərəfdən onun prinsipləri var, digər tərəfdən dəyişən dünya amili var ki, bu, liderdən bəzi fikirləri dəyişməyi tələb edir, yeni qiymətləndirmələr və yeni hərəkətlər tələb edir. Mənə elə gəlir ki, bu, Azərbaycan üçün sevindirici haldır, çünki İlham Əliyev yeni hadisələrə, eyni zamanda, milli maraqlara xidmət edən ənənələrə çox həssas yanaşır. Və bu həssaslıq köhnə prinsiplərlə birləşərək onu çox müasir və sabit, siyasi cəhətdən şəxsi edir və bütün bunlar eyni zamanda Azərbaycana sabitlik verir. Azərbaycan lideri yeni reallıqları asanlıqla idarə edir. O, Qərbə, xüsusən də Fransaya daha çox şübhə ilə yanaşırdı. Müsahibəsində o, atasının dövlət başçısı kimi ilk xarici səfərinin də Fransaya olduğunu bildirdi. İndi isə Fransa Makronun dövründə tamam başqa ölkəyə çevrilib– fərqli prinsiplərlə, fərqli münasibətlə. İndi Azərbaycanla Fransanın münasibətləri nəinki pozulur, iki ölkə birbirinə düşmənçilik edir. Amma İlham Heydəroviç əlbəttə ki, bununla bağlı kompleksə malik deyil, fransalı həmkarına və onun gördüyü işlərə, mən deyərdim ki, mənəvi güc mövqeyindən, mənəvi üstünlük mövqeyindən yanaşır. Bu, İlham Əliyevin lider kimi təkamülünə dair bir sıra nümunələrdən yalnız biridir.

**-Artıq bir ilə yaxındır ki, (Azərbaycan tərəfindən indiyədək bu dərəcədə sərtlik olmayıb) prezident tərəfindən ABŞ-a qarşı sərt tənqidlər görürük... Səbəb nədir? Ritorika dəyişikliyinə görə? Axı ABŞ əvvəllər də Azərbaycan Respublikasına qarşı belə davranıb...**

-Azərbaycanın dövlət kimi mövqelərinin möhkəmlənməsi ilə. Əliyevin siyasətçi kimi təkamülü ilə. Qərbin Bakıya qarşı güclənən düşmənçilik hərəkətləri bunlarla bağlıdır. Azərbaycan hakimiyyətinin bu hərəkətlərə reaksiyası ölkənin suverenliyini gücləndirməkdir. Bu, Qərbin xoşuna gələ bilməzona həmişə tabe etmək istədiyi zəif dövlət hakimiyyəti lazımdır, Ukraynadakı çevrilişlə olduğu kimi, ölkələri anti-Rusiyaya çevirmək lazımdır. Rusiya ətrafındakı perimetri dağıtmağa cəhd etməklə, onlar bir vaxtlar əldə edə bildikləri hakim mövqelərini qoruyub saxlamağa çalışırlar. İndi bu üstünlük artıq yoxdur, lakin qıcolmalar və isterikalar var.

Çox təhlükəli dövrdür. Bu vəziyyətdə Qərbin öz “tövsiyyələrini” tətbiq etmək istəyənlər üçün əsas məsələ bunu düzgün qiymətləndirmək və “Aİ-yə daxil olmaq üzrə danışıqlara başlayaq” vədlərinə, bəzi başqa eyhamlara aldanmamaqdır. Bu cür təkliflərdən sonra Qərb getdikcə daha çox yeni şərtlər irəli sürməkdə davam edir. Bu sahədə artıq dünya təcrübəsi toplanıb, Qərbin xəyanəti, öz vədlərindən imtina etməsi təcrübəsi toplanıb. Sözlərinin üstündə durmağı bilmirlər. Yaxşı, bundan sonra onlarla necə davranmalısan?

İlham Heydəroviç Azərbaycanın tamamilə parlaq şəkildə keçirdiyi BMT-nin COP29 iqlim konfransına Bakının ev sahibliyi etməsinə Qərbin “münasibətini” açıqladı. O, prezidentin dediyi kimi “yalançı dördlüyün”- “Washington Post”, “New York Times”, “Figaro” və “Le Monde” qəzetlərinin Azərbaycanın COP29-da sədrliyini hər cür yolla gözdən salmağa çalışdıqlarını təsvir edib. 80-ə yaxın dövlət və hökumət başçısının iştirak etdiyi belə bir mötəbər qlobal iqlim sammitinə ev sahibliyi edən Azərbaycan onu möhtəşəm tədbirə çevirdi. Bu Qərb mediası təşəkkür sözləri əvəzinə (baxmayaraq ki, Azərbaycan Qərbin belə təbliğ etdiyi “yaşıl” gündəmi müdafiə edir) Azərbaycanı aşağılamağa və COP29-un sədrliyinin nailiyyətlərini puç etməyə çalışdı. Qəbuledilməz haldır. Bu, Qərbin qeyri-səmimiliyinin növbəti nümunəsidir.

Müasir dövr xüsusilə dövlətlərə nümayiş etdirir ki, onlar Qərbin irəli sürdüyü cəfəngiyyatlara arxalana bilməzlər. Sizin öz proqramınız olmalı, öz suverenlik ideyanıza, milli maraqlarınıza arxalanmalısınız, dost dövlətlərə arxalanmalısınız, bu dostluqda ümumi dəyərlərə sadiq olmalısınız. Rusiya ilə Azərbaycan arasındakı münasibətlər müttəfiqlik münasibətləridir. Müttəfiqlərin Əməkdaşlıq Bəyannaməsi 22 fevral 2022-ci ildə imzalanıb. Rusiya ilə Azərbaycan arasındakı bu müttəfiqlik bugünkü beynəlxalq şəraitdə əvəzsizdir və onun gələcəkdə böyük inkişaf resursu var, İlham Heydəroviç müsahibəsində bunu təsdiqləyib.

Rusiya və Azərbaycan yeni, daha ədalətli dünya nizamının qurulmasında birlikdə iştirak edirlər. Daha ədalətli dünya nizamı çoxmərkəzli, çoxrəngli dünyadır. Bu dünyada isə ən önəmlisi özünüz olmaq və öz milli maraqlarınızdan çıxış etməkdir. Əgər siz xarici dövlətin milli maraqlarından çıxış edirsinizsə, o zaman bu, ölkənizi mütləq xoşbəxt etməyəcək. Buna misal olaraq Ukraynanı göstərmək olar. İndi Gürcüstan yenidən ölkəni sarsıtmaq cəhdləri ilə üzləşib.

İlham Əliyev mənfi manipulyasiyalara uğurla müqavimət göstərən hazırkı Gürcüstan hakimiyyətinə numunədir. O, başa düşür ki, Qərb Gürcüstan vasitəsilə Qafqazı ələ keçirmək üçün növbəti cəhd edir. Əgər Ermənistan Qərbə getsə, Gürcüstanda turbulentlik yaşanır. Azərbaycan maraqlarına və yeni sabit dünya nizamının maraqlarına uyğundur ki, Gürcüstanda qanuni yolla seçilmiş hökumət güclənsin. Gürcüstan hökuməti Azərbaycanla münasibətlərini möhkəmləndirməkdə davam edir və mən, həqiqətən, ümid edirəm ki, Rusiya ilə diplomatik münasibətlərin bərpası kursunu təyin edib. Əgər əksinə olsa, Ukrayna hər şeyin necə bitdiyinin bariz nümunəsidir. O, bütün imkanlarını itirdi və Qərbdə heç nə qazanmadı, yalnız itirdi. İlham Əliyev bu gün yeni dünya düzəninin görkəmli tərəfdarıdır. Və çox aktiv, bacarıqlı, bacarıqlı oyunçudur.

Rusiya və Azərbaycan bu gün Cənubi Qafqazda Qərbin regionda sabitliyi pozmaq cəhdlərinə qarşı xətti tutan oyunçulardır. Bu cəhdlərə qarşı mübarizə regional və geosiyasi baxımdan Azərbaycan üçün çox vacibdir. Bölgədə sabitlik onun inkişafı üçün şərtdir.

**-Prezident Əliyev ölkədə rus dili amilinin vacibliyini bildirdi və bəzi dövlətlər tərəfindən rus dilinin siyasi səbəblərdən ayrı-seçkiliyə məruz qoyulmasını tənqid etdi...**

-Azərbaycan hakimiyyətinin rus dilinə böyük dəyər verməsi bir daha Prezident İlham Əliyev tərəfindən səsləndirildi. Prezident Əliyev çox düzgün mövqe seçib ki, onun ölkəsində rus dili Azərbaycan dilinə, Azərbaycan dili də rus dilinə qarşı deyil. Yəni, “ya /ya da ” seçimi yoxdur. O, xüsusilə qeyd edib ki, Azərbaycanda rus dili heç bir halda Azərbaycan dilinə, şəxsiyyətə və mədəniyyətə heç bir zərbə vurmur. Mən deyərdim ki, Əliyev bu yolla mədəni səxavət nümayiş etdirir ki, onun ölkəsində rus dili mədəni əlavə kimi çıxış edir. Prezident isə vurğulayıb ki, Azərbaycan üçün rus dili müxtəlif istiqamətlərdə dünyaya əlavə pəncərədir: məsələn, rus dilində çoxlu elmi əsərlər çap olunur. Azərbaycanda 320-yə yaxın məktəbdə rus dilində də təhsil sektoru var. Amma Ermənistanda təəssüf ki, bununla bağlı vəziyyət mürəkkəbdir. Yəni Ermənistan Respublikası özünü belə yanaşmadan məhrum edir. Əvvəllər Ermənistanın Rusiyanın forpostu olması nə qədər deyilsə də, son nəticədə görürsən: əslində tamam başqa mənzərədir.

Əliyev rus dilini qorumaq və inkişaf etdirmək siyasətini dəstəkləyir, azərbaycanlılara rus dilində danışmaq və oxumaq imkanı verir. Çexovun dediyi kimi: ”Nə qədər çox dil bilirsinizsə, o qədər çox sayda insansınız”.

Əliyevin siyasəti, o cümlədən rus dili ilə bağlı siyasəti çox müdrik və uzaqgörən görünür.

**- Müsahibəniz zamanı daha bir çox maraqlı mövzu qaldırıldı, hansı ki, bu, uzun illərdir ki, ortada olub və hətta Xüsusi Hərbi Əməliyyatdan əvvəl də qaldırılıb. Azərbaycan prezidenti Rusiya ilə Qərb arasında münasibətlərin normallaşdırılmasında Bakının potensial vasitəçilik imkanlarını təklif edib...**

-Yeni dünya nizamı məsələsi sırf Rusiya ilə ABŞ arasında aparılan danışıqlardır. Çünki Rusiya Federasiyası indi məhz yeni dünya nizamı, yeni dünya uğrunda müharibə aparır. İstənilən sülh isə müharibənin nəticəsidir. Azərbaycan bunu çox gözəl bilir. Prezident İlham Əliyev isə şəxsən Rusiyanın bu vəziyyətdə mövqeyini və milli maraqlarını başa düşür.

İkinci Dünya Müharibəsindən yaranan böyük sülh bizim nəslə qədər davam etdi. Əbədi sülh deyilən bir şey yoxdur və indi bizim nəslimiz yeni dünya qurmaq şərəfi və çağırışının qarşısındadır. Ancaq yenə də müharibə yolu ilə baş verir. Rusiya elə bir vəziyyətə gətirildi ki, əlində silah öz milli maraqlarını müdafiə etmək məcburiyyətində qaldı.

Rusiya ilə Qərb arasında Soyuq Müharibənin həlli, ləğvi 1975-ci ildə Helsinki Yekun Aktının imzalanması idi. Belə bir "qarşılıqlı güzəşt" indi- konkret olaraq Rusiya ilə ABŞ arasında birbaşa hərbi toqquşma şəklində və ya hamımız üçün ədalətli olan sülhün təminatı haqqında Rusiya Federasiyası ilə ABŞ arasında razılaşmalar şəklində gələ bilər. Hamı üçün bərabər təhlükəsizlik şəraitinin formalaşdırılması üçün. Çünki nüvə balansını saxlayan Rusiya və ABŞ-dır. Və bu nüvə tarazlığı qlobal sülh üçün şərtdir.

Putin ABŞ-a, Tramp Rusiyaya getməyəcək. Amma onlar neytral ölkədə görüşməlidirlər. Onlar Finlandiyada bir dəfə görüşdülər, lakin bu ölkə hələ NATO üzvü olmayanda. Azərbaycan Qoşulmama Hərəkatının bugünkü liderlərindən biri kimi, təbii ki, bu cür danışıqlar üçün əlverişli platformaya çevrilə bilər. Bundan başqa, İlham Heydəroviçin qeyd etdiyi kimi, Rusiya və ABŞ Baş Qərargahlarının rəhbərləri bir müddət əvvəl Bakıda görüşüblər.

***Tərcümə -Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*

SON SƏHİFƏ
SƏS
21 dekabr
2024-cü il

"SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Anamızın taleyi cehizimizdir?



***"Belə bir deyim var ki, "Taleyimiz doğulduğumuz evlərdə yazılır". Əvvəl qələmi analarımız əlinə alır və bizim taleyimizi yazır. Bəs, bu deyim nə qədər doğrudur və həyatımızda nə qədər bunu çəkirik?". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Zeynəb Eyyubova deyib.***

MÜNASİBƏT

Psixoloq sözlərinə belə davam edib: "İnsanın doğulduğu ev onun bəzi sahələrdə taleyini təyin edir. Məsələn, bir xristianın evində doğulmuş bir uşaq xristian olaraq doğulur, yəni bildiyi dil olur. Bir müsəlmanın evində doğulmuş uşaq müsəlman olaraq doğulur. Deməli, insanın əqidəsini, həyata baxışını, əslində, doğulduğu evləri qərar verir. Daha sonra 7 yaşa qədər insanın həyatı, taleyi travmalarından bəslənir. Yəni, 7 yaşına qədər biz hansı travmaları yaşamışıqsa, hansı problemləri görmüşüksə həyatımızda o problemlərə uyğun da həyat seçimləri edirik. Məsələn, biz daim atamızla anamızı dava edərkən görmüşüksə həmişə ona uyğun rəftarı bizə edəcək bir namizəd tapırıq. Çünki bədənimiz, ruhumuz, beynimiz, düşüncəmiz ondan başqasını tanımır. Elə bilin, siz bir telefonsunuz, "android" sistemi ilə işləyirsiniz. Bu halda, "iPhone"nin işlədiyi sistemi sizin telefonunuz qəbul etməyəcək".

Psixoloq sözlərinə belə davam edib: "İnsan da belədir. Bilmədiyi dil əgər bunun əzbəri sevilməmək olubsa, ailədə istənilən uşaq olmayıbsa onu sevən qadını və yaxud kişini türklər demiş "bünyəsi" qəbul etməyəcək. Çünki onun tanımadığı, bilmədiyi dildir. Bəli, bizim bəzən analarımızın taleyi bizim cehizimiz olur. Amma indiki dövrdə artıq fərqindəlik yaranıb deyə insanlar bir şeylərin fərqindədirlər və o şeylərə uyğun hərəkət edirlər deyə dəyişənlər də var. İnsan öz taleyini həmişə dəyişə bilər, insan düşüncələrini dəyişə bilər, insan həyat tərzini dəyişə bilər. Necə ki, bir narkoman və yaxud bir alkoqolizmdən əziyyət çəkən insan bir an içində dəyişilib başqa cür ola bilir".

*Ayşən Vəli*

# Mbappe bu kuboku arzulayır




"Real"ın hücumçusu Kilian Mbappe qazanmaq istədiyi kubokun adını açıqlayıb. Bu barədə ESPN məlumat yayıb. 26 yaşlı forvard Çempionlar Liqasının qalibi olmaq istədiyini deyib: "Hansı titulu əldə etmək istəyirəm? Əlbəttə ki, Çempionlar Liqasını. Dünyanın ən yaxşı klubuna məhz buna görə gəlmişəm".

Qeyd edək ki, Mbappe bu yay PSJ-dən ayrıldıqdan sonra "Real"a keçib. O, cari mövsümdə bütün turnirlərdə 22 matça çıxıb, 12 qol vurub və 2 məhsuldar ötürmə verib.

# Qiyabi təhsil alan tələbələr təhsil krediti ala bilərmi?



Qiyabi təhsil alanlar üçün təhsil krediti planlaşdırılmır. Trend xəbər verir ki, bunu Təhsil Tələbə Krediti Fondunun İdarə Heyətinin sədri vəzifəsini müvəqqəti icra edən Bəhruz Əzimov jurnalistlərin suallarını cavablandırarkən deyib.

"Qiyabi təhsil alanların əmək fəaliyyəti ilə məşğul olmaq imkanı olduğu üçün bu tələbələrə təhsil kreditinin ayrılması hələ ki, planda yoxdur", - o bildirib. "Bu məsələ Şuranın iclasında müzakirə edilməli, Maliyyə yükü hesablanmalıdır", - sədr əlavə edib.

## 39 yaşı var, NBA-da rekord qırır...

"Los Anceles Leykers"in üzvü Lebron Ceyms Milli Basketbol Assosiasiyası (NBA) tarixində meydanda keçirdiyi dəqiqələrin sayına görə rekorda imza atıb. O, məşhur oyunçu Kərim Abdul-Cabbarı keçib. 39 yaşlı basketbolçu bu uğura "Sakramento"ya qarşı oyun zamanı nail olub. NBA-da 22-ci mövsümünü keçirən L.Ceyms 1517 oyuna çıxıb və ümumilikdə 57447 dəqiqə meydanda olub.




Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700